

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Malayziya Azərbaycan üçün dost ölkədir"



4

# Azərbaycan-ABŞ:

## münasibətlərimiz strateji tərəfdaşlığa yüksəlib



2

№ 115 (6798)

SƏS

5 iyul 2023-cü il.
Qiymәti 60 qәpik

**Prezident İlham Əliyev: Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında ABŞ-ın səylərini yüksək qiymətləndiririk**

# Fransa ilə demokratiya arasında BÖYÜK UÇURUM



8

## "Müasir Azərbaycan mediası - peşəkarlıq standartları və yeni trendlər"



5

## Uğurlu dövlət siyasəti: vətəndaşların sosial rifahı



11

## Ukraynanın aparıcı KİV-ləri Azərbaycanın bu ölkəyə dəstəyindən yazırlar



За дорученням президента Азербайджану компанія SOCAR утеплює школу в місті Ірпінь

4



10

## Küçədən yığılan milyonlar

## "Ermənistan sülh sazişini imzalamaq məcburiyyətindədir"



5

# Azərbaycan-ABŞ:

## münasibətlərimiz strateji tərəfdaşlığa yüksəlib

### Prezident İlham Əliyev: Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında ABŞ-ın səylərini yüksək qiymətləndiririk

Bu gün Azərbaycanın çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən qüdrətli ölkələrindən olan ABŞ münasibətlərinin möhkəmləndirilməsi xüsusi prioritet təşkil edir. Rəsmi Bakı ABŞ-la əməkdaşlığın inkişafına hər zaman xüsusi yer verir. Ölkələrimiz arasında enerji, nəqliyyat, infrastruktur, kommunikasiya və digər sahələrdə güclü əlaqələr mövcuddur. Xüsusilə Azərbaycanın Amerika ilə münasibətləri son illərdə strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlib.

Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə milli bayram münasibətilə ünvanlandığı təbrik məktubu hazırda iki dövlət arasında olan münasibətlərin yeni inkişaf mərhələsinə keçdiyinin göstəricisidir. ”Qlobal çağırışlara, beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik məsələlərində fəal və səmərəli birgə işimiz, iqtisadi sahədə geniş spektrdə qarşılıqlı fəaliyyətimiz ikitərəfli münasibətlərimizi səciyyələndirən başlıca amillərdəndir”. Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə milli bayram münasibətilə ünvanlandığı təbrik məktubunda yer alıb.

Enerji sahəsindəki əhəmiyyətli əməkdaşlığımızın məmnunluq doğurduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: ”Birləşmiş Ştatlar Azərbaycanın enerji strategiyasını bütün mərhələlərdə qətiyyətlə və davamlı şəkildə dəstəkləmişdir. Biz enerji təhlükəsizliyinin təmin olunmasında ölkələrimizin sıx əməkdaşlığını, reallaşdırdığımız irimiqyaslı transmilli layihələrdə ABŞ-ın hərtərəfli dəstəyini xüsusi dəyərləndiririk”.



### ”ABŞ-la əlaqələrimizi daha da genişləndirmək əzmindəyik”

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-nın Prezidenti Cozef Baydenə ABŞ-ın milli bayramı - Müstəqillik Günü münasibətilə ünvanlandığı təbrik məktubunda o da vurğulanır ki, haazırda Cənubi Qafqazda davamlı sülhün bərqərar olması üçün əlverişli şərait formalaşmışdır. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsinin hazırlanması prosesində ABŞ-ın səylərini yüksək qiymətləndiririk.

Dövlətimizin başçısı vurğulayıb ki, bu gün bir sıra sahələrdə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ABŞ-la əlaqələrimizi daha da genişləndirmək əzmindəyik: ”Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-ABŞ tərəfdaşlığının inkişafı və möhkəmləndirilməsi yolunda birgə səylərimizi dövlətlərimizin maraqları və xalqlarımızın mənafeyi naminə bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik”.

### BƏLİ, BU GÜN AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YÜRÜTDÜYÜ DİPLOMATİYA BEYNƏLXALQ BİRLİK VƏ BÖYÜK GÜCLƏR TƏRƏFİNDƏN TƏQDİR EDİLİR

Bir vaxtlar özünün daxili enerji tələbatını ödəmək gücündə olmayan, yalnız idxal gücünə ayaqda dayanan Azərbaycan indi təkcə mövcud olduğu yox, o cümlədən Avropanın enerji təhlükəsizliyinin təminatında olduqca mühüm rol oynayır və bu, ölkəmizin beynəlxalq birliyin daim xüsusi diqqət mərkəzində qalmasının səbəblərindən biridir. Həmçinin enerji təhlükəsizliyi təminatında Azərbaycanın rolunun gündən-günə artması ölkəmizlə dünya dövlətlərini, xüsusən də Qərbi bu sferada daha sıx əməkdaşlığa sövq etməkdədir. Buna əsas səbəb həm enerji ehtiyatları ilə kifayət qədər zəngin olan Azərbaycanın uzun müddət Avropanın enerji tələbatının ödənilməsində vacib rola malik tərəflərdən biri kimi çıxış etməsi, həm də Azərbaycanın iştirakı olmadan Mərkəzi Asiyadan başlayaraq, Qafqazı keçməklə Türkiyə və Avropa istiqamətində uzanan enerji layihələrinin reallaşdırılmasının mümkünsüzlüyüdür. Yəni Azərbaycan qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarındandır.

Bu yerdə cari ilin may ayının 31-də ABŞ Prezidenti Cozef Baydenin Bakıda keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi məktubda da qeyd olunur ki, enerji təhlükəsizliyi ilə bağlı məqsədlərə çatmaq üçün şaxələndirmə heç vaxt olmadığı qədər əhəmiyyətlidir və Azərbaycan bu məqsədə nail olmaq üçün regional səylərdə əsas rol oynayıb: ”Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Azərbaycan ”Cənub qaz dəhlizi” vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır”.

Bundan əlavə, Amerika prezidentinin məktubunda o da vurğulanır ki, ”Cənubi Qafqazda təhlükəsizliyin və rifahın təşviqinə kömək edəcək davamlı və ədalətli sülhü dəstəkləməyə davam edəcəyik. Qarşıdan gələn illərdə əməkdaşlığımızın davamlı olacağına ümid edirəm”.

### BƏLİ, BÜTÜN BUNLAR TƏKCƏ ABŞ DÖVLƏTİNİN MARAQLARINA GÖRƏ DEYİL, HƏM DƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSUNUN UĞURLU NƏTİCƏLƏRİDİR

Və bu siyasətin həyata keçirilməsi gənc müstəqil Azərbaycanın siyasi-diplomatik nailiyyətlərini gündən-günə artırır. Müstəqilliyin geridə qalan dövrlərində Azərbaycan -ABŞ əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin daim inkişaf etməsi də məhz həmin uğurlar sırasındadır. 1993-cü ilin yayından etibarən Vaşinqton -Bakı münasibətləri daim yüksələn xətlə inkişaf edib.

Dostlarımız da, bədxahlarımız da şahiddirlər ki, Azərbaycan -ABŞ əməkdaşlığı cəmiyyət həyatının bütün sahələrini əhatə edir. Məsələn, enerji təhlükəsizliyi, beynəlxalq terrorizmə, narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə, kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə sahəsində iki ölkə arasında geniş əməkdaşlıq mövcuddur. Xüsusilə vurğulanmalıdır ki, ABŞ və Azərbaycan Avropanın enerji təhlükəsizliyində yaxından iştirak edirlər. Xüsusilə xatırladılmalı məqamlardan biri də odur ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini tanıyır və daim dəstəkləyir.

Dövlət başçımız dəfələrlə xatırlatmışdır ki, 2001-ci ildə Nyu-Yorkda törədilən 11 Sentyabr terror hadisəsindən sonra rəsmi Vaşinqtonun öz yanında gördüyü ilk dövlətlərdən biri məhz Azərbaycan olmuşdur. Ölkəmiz ABŞ rəsmilərinin təşəbbüsü ilə yaradılan antiterror koalisiyaya ilk qoşulanlardan biri kimi dostluğa və tərəfdaşlığa sədaqət nümayiş etdirmişdir.

Bir sözlə, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü diplomatiya beynəlxalq birlik və böyük güclər tərəfindən təqdir edilir. Xüsusilə də, dövlət başçımızın enerji diplomatiyası və bu istiqamətdəki bütün layihələri ölkənin iqtisadi potensialını gücləndirir, eləcə də neft-qaz sektorundan əldə edilən gəlirlərin iqtisadiyyatın qeyri-neft sektoruna yönəldilməsinə real imkan yaradır.

Bütün bunlar onu göstərir ki, Azərbaycan enerji ehtiyatlarının ixracı sahəsində ölkənin milli maraqlarına tam cavab verən, həmçinin beynəlxalq sferada mövqeyini və əlaqələrini əhəmiyyətli dərəcədə gücləndirən siyasət həyata keçirir. Məhz bu siyasətin nəticəsi olaraq Azərbaycanla enerji sahəsində əməkdaşlığa daim xüsusi maraq göstərilir və ölkəmizin mövqeyi ilə daha çox hesablaşırlar. Bir sözlə, dövlət başçımızın dediyi kimi: Azərbaycan ilə ABŞ arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

***RƏFİQƏ KAMALQIZI***

## Malayziya qəzeti Qərbi Azərbaycan mövzusundan yazdı: ”Öz evindən qovulmaq...”

Malayziyanın nüfuzlu ”Astro Awani” qəzetində ”Öz evindən qovulmaq - Tarixi faktlar əsasında Qərbi Azərbaycan reallığı” sərlövhəli məqalə yayımlanıb. AZƏRTAC xəbər verir ki, ölkəmizin Malayziyadakı səfirliyinin diplomatı Elsevər Salmanovun müəllifi olduğu məqalədə Azərbaycan ərazisinə məqsədyönlü şəkildə ermənilərin köçürülməsi, süni bir erməni dövlətinin yaradılması, həyata keçirilmiş bu layihənin tərkib hissəsi kimi ermənilərin bölgəyə köçürülməsinə paralel olaraq azərbaycanlıların planlı şəkildə bölgədən qovulması, yer, tarixi bina, coğrafi adların dəyişdirilməsi faktlarından bəhs olunur. Vurğulanır ki, beynəlxalq hüququn kobud şəkildə pozulması nəticəsində yüz minlərlə azərbaycanlı faciə ilə üzləşib. Onların hüquqlarını müdafiə məqsədilə 1989-cu ildə Azərbaycan Qaçqınlar Cəmiyyəti təsis edilib, 2022-ci ildə həmin təşkilat Qərbi Azərbaycan İcması adı altında yenidən təşkilatlanaraq daha səmərəli fəaliyyət həyata keçirməyə başlayıb.


astro AWANI | PANTAU BAHARU
LIVE
TERKINI VIDEO ENGLISH MALAYSIA DUNIA POLITIK HIBURAN BISNES SUKAN RANCANGAN GAYA HIDUP LAIN-LAIN

[COLUMNIST] Being expelled from ones own home - The reality of Western Azerbaijan in the light of historical facts

Astro Awani
Julai 4, 2023 08:16 MYT

Dr. Elsevar Salmanov, the First Secretary-Consul of the Embassy of the Republic of Azerbaijan, highlights the realities facing exiled Azerbaijanis.

Think about it, while you are living a happy life in your own home, someone comes and demands that you must leave your home. You are expelled from your homeland without even asking why. You are exiled from your homeland where you were born and raised, despite your thousands of years of past there. Leaving the graves of your dear relatives, holy monuments, mosques and historical artifacts behind, you are driven into trucks like a commodity. You get fired by being deprived of so many things that make you who you are.

It was "necessity" to establish a Christian state in the South Caucasus in line with the interests of Tsarist Russia and Iran. Political geography makers (map "artists") had decided on this. An ethnic community was found, and the land was sought for the establishment of a "state" for the said community.

Berita Terkini
Kewujudan 'kacang hantu' dalam JIM dan JPN perlu dibanteras - Zahid
Mekanik rugi RM200,000 diugut sebar video lucah oleh wanita bernama 'Yaya'
Tuduhan ini melampau! Macam s... yang bunuh isteri saya - Shuib
Kes kekecohan di KLIA, 22 saksi diambil keterangan

Məqalədə vətənindən zorla qovulan insanların doğma yurdlarına qayıtmalarının ən əsas insan hüququ olduğu qeyd edilib.

# Azərbaycan dinlərarası münasibətlərə töhfə verir




Tolerant mühitin, multikultural dəyərlərin məkanına çevrilən Odlar diyarımız xoşməramlı mesajlarını dünya ölkələrinə göndərir. Bu mesajlarda dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşaması və ölkəmizin uğurlu inkişafına birgə töhfələr verən mövcud mühit öz əksini tapır. Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun olaraq möhkəmlənib, dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. ”Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik”, deyən Ulu Öndər Heydər Əliyev qeyd edirdi ki, Azərbaycanda islam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır: ”Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar”. Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmizdə milli-mənəvi birlik, multikultural və tolerant mühit formalaşıb. Bütün dinlərə hörmətlə yanaşaraq müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət göstərilir, o cümlədən dini ocaqlara məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir.




## ”AZƏRBAYCAN DÜNYA MİQYASINDA DİNLƏRARASI, MİLLƏTLƏRARASI MÜNASİBƏTLƏRİN QURULMASINDA ARTIQ NÜMUNƏVİ ÖLKƏ KİMİ TANINIR”

Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Ölkə ərazisində 700-dən artıq pir və ziyarətgah fəaliyyət göstərir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanınır. Ölkəmizdə abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzi, Katolik məbədi, İmamzadə kompleksi, möhtəşəm Heydər Məscidi Azərbaycanda olan mühitin təzahürüdür. Bütün bunlarla yanaşı, Rus Pravoslav Baş Kafedral Kilsəsi, ”Xilaskar” Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Bundan əlavə, Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun ”Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində reallaşdırılıb. O cümlədən, Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Azərbaycan təkcə ölkə daxilində deyil, dünya miqyasında da xristian irsinin qorunmasına töhfələr verib. Ölkəmizin dəstəyi ilə Vatikanda yerləşən Müqəddəs Sebastian katakombalarının, Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış ”Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş” çərçivəsində Roma şəhərində Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası və s. ölkəmizin dini tolerantlığının nümunəsidir.

Bu gün tolerantlığın məkanı, multikultural ənənələrə, islam dininə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub-saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, biz nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya nümunə də göstəririk: ”Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk”

## ÖLKƏMİZDƏ DÖVLƏT VƏ XALQ BİRLİYİ SAYƏSİNDƏ İCTİMAİ ASAYİŞ VƏ ƏMİN-AMANLIQ MÖVCUDDUR

Müasir dövrümüzdə ölkəmizdə mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən dövlət siyasətinin məntiqi nəticəsidir. Bu gün ölkəmizdə dövlət və xalq birliyi sayəsində ictimai asayiş və əmin-amanlıq mövcuddur. Dindən sui-istifadə edərək qarşıdurma yaratmağa çalışan, respublikamızda ictimai-siyasi və dini sabitliyin pozulmasına, eləcə də yad dini ideologiyaların ölkəmizə ixrac edilməsinə müəyyən cəhdlərin edilməsi kimi mənfi halların qarşısı qətiyyətlə alınıb.

Bəli, qətiyyətlə deyə bilərik ki, müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu bir inkişaf yolundadır. Terrorizmin baş alıb getdiyi dünyada, islama qarşı hücumların artdığı və islamafobiyanın gücləndiyi bir vaxtda Azərbaycan ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. ”İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır” - deyən Azərbaycan Prezidenti bildirib ki, elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin: ”Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk”.

Bu gün özlərini demokratik ölkə kimi təqdim edənlər dini zəmində iğtişaşları alovlandırır, xalqlar arasına ədavət toxumu səpirlər. Separatizmi dəstəkləyən və irqçilik siyasətini özünün dövlət siyasətinin əsas istiqamətinə çevirənlərin sülhdən, təhlükəsizlikdən, tolerantlıqdan danışmağa haqqı yoxdur. Azərbaycan dünyaya açıq qapıdır. Buyurub gəlsinlər, buradakı multikultural məktəbdən dərs alıb, Odlar Diyarının məzunu olsunlar. Həqiqətən də. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir. Bu gün Azərbaycanda dinlər arasında yaranan dözümlülük və tolerantlıq münasibətləri bütün dünya ölkələri üçün nümunədir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# “Malayziya Azərbaycan üçün dost ölkədir”

## YAP Mərkəzi Aparatında Malayziyanın Birləşmiş Malay Milli Təşkilatının nümayəndələri ilə görüş keçirilib





**İyulun 4-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında ölkəmizdə səfərdə olan Malayziyanın Birləşmiş Malay Milli Təşkilatının (UMNO) nümayəndə heyəti ilə görüş keçirilib.**

Qonaqları salamlayan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Malayziyanın Azərbaycan üçün dost ölkə olduğunu bildirib. Bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladan YAP Sədrinin müavini Azərbaycanla Malayziya arasında müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı münasibətlərin inkişafı üçün geniş imkanların olduğunu diqqətə çatdırıb.

Tahir Budaqov qeyd edib ki, hər iki ölkə ikitərəfli əlaqələrlə yanaşı, Qoşulmama Hərəkatı çərçivəsində də fəal əməkdaşlıq edir. Eyni zamanda, Malayziya hər zaman Azərbaycanın haqq işini, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib, dövlət səviyyəsində bəyanatlar yayıb.





YAP Mərkəzi Aparatının rəhbəri qarşılıqlı səfərlərin önəminə toxunaraq iki ölkə arasında fəal siyasi dialoqun iqtisadi-ticari əlaqələrin inkişafı üçün möhkəm zəmin yaratdığını söyləyib. Tahir Budaqov siyasi partiyaların əməkdaşlığının Azərbaycan-Malayziya işbirliyinin dərinləşdirilməsinə mühüm töhfə olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, Bakıda YAP-ın ev sahibliyi ilə keçirilən ICAPP-ın bir sıra tədbirlərində, o cümlədən 2022-ci il noyabrın 22-də ”Təhlükəsizlik və əməkdaşlıq: Siyasi partiyaların rolu” mövzusunda xüsusi konfransında UMNO-nun da daxil olduğu Malayziyanın iqtidar koalisiyasında yer alan siyasi partiyaların nümayəndələrinin iştirak etməsi ikitərəfli və çoxşaxəli əlaqələrin inkişafına təkan verib. Tahir Budaqov parlamentlərarası əlaqələrin genişləndirilməsinin də əhəmiyyətindən bəhs edib və bu sahədə təmasların sıxlaşdırılmasının önəmli olduğunu vurğulayıb.

Yüksək diqqətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Malayziyanın Cohor ştatının naziri, UMNO Gənclər Birliyinin rəis müavini Mohd Hairi Bin Mad Shah Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə edib. O qeyd edib ki, Malayziya Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verir.

Mohd Hairi Bin Mad Shah hazırda 3 milyondan çox üzvü olan UMNO-nun fəaliyyəti haqqında məlumat verib və bu siyasi partiyanın Malayziyanın müstəqillik qazandığı 1957-ci ildən ölkənin əsas hakim partiyası olduğunu diqqətə çatdırıb. O, təmsil etdiyi təşkilatın Yeni Azərbaycan Partiyası ilə çoxşaxəli əlaqələrin qurulmasında və inkişafında maraqlı olduğunu bildirib. Mohd Hairi Bin Mad Shah YAP-ın gənclər siyasəti sahəsində təcrübəsinin onlarda xüsusi maraq doğurduğunu və bu istiqamətdə qarşılıqlı fikir mübadiləsinin aparılmasının böyük önəm daşıdığını vurğulayıb.

Görüşdə, həmçinin YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Malayziya xarici işlər nazirinin siyasi katibi Akmal Zharif Bin Ahmad Kamal və UMNO-nun Qadınlar Birliyinin kommunikasiyalar üzrə sədri Rosni Binti Zahari çıxış edərək partiyalar arasında münasibətlərin inkişafı və iki ölkə gənclərinin qarşılıqlı əlaqələrinin genişləndirilməsi ilə bağlı fikirlərini bildiriblər.

Sonda qarşılıqlı olaraq hədiyyələr təqdim olunub və xatirə fotosu çəkdirilib.



## Ukraynanın aparıcı KİV-ləri Azərbaycanın bu ölkəyə dəstəyindən yazırlar

**Ukraynanın aparıcı KİV-ləri Azərbaycan dövlətinin İrpen şəhərində yerləşən və görkəmli elm xadimi, oftalmoloq-alim Zərifə Əliyeva adına 12 nömrəli tam orta məktəbə verdiyi daha bir töhfəyə dair məqalələr dərc edib.**




AZƏRTAC-ın hazırladığı materiallar əsasında ”UNİAN”, ”Obozrevatel”, ”Telegraf” və digər xəbər portallarında dərc olunan məqalələrdə qeyd olunur ki, istilik probleminin həlli məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə ”SOCAR Energy Ukraine” şirkəti orta məktəbin binasının xarici istilik izolyasiyası işlərinə başlayıb.

Məqalələrdə məktəbin direktoru Valentina Antonenkonun orta məktəbə daim dəstək göstərən Azərbaycan dövlətinə, xüsusilə Prezident İlham Əliyevə təşəkkürü də qeyd olunub. Vurğulanıb ki, bundan əvvəl Prezident İlham Əliyevin göstərişi ilə ”SOCAR Energy Ukraine” şirkəti Rusiya-Ukrayna müharibəsi zamanı İrpen şəhərində ciddi ziyan dəyən orta məktəbin təmirini üzərinə götürərək, müvafiq işləri yeni tədris ilinə kimi başa çatdırıb.




Təmir işləri zamanı orta məktəbin dam örtüyü tamamilə yenilənib, sinif otaqları təmir edilib, pəncərə çərçivələri dəyişdirilib, yeni istilik radiatorları quraşdırılıb, kosmetik işlər həyata keçirilib. Partlayışdan ən çox zərər çəkmiş idman zalı və bomba sığınacağı təmir edilib. Eyni zamanda, elektrik enerjisi probleminin həlli məqsədilə orta məktəb generatorla da təmin olunub.

# "Müasir Azərbaycan mediası - peşəkarlıq standartları və yeni trendlər"

***Dünən Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müasir Azərbaycan mediası - peşəkarlıq standartları və yeni trendlər" mövzusunda respublika elmi-praktik konfransı keçirilib. Əvvəlcə Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***







Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev "Heydər Əliyev İli" çərçivəsində universitetdə keçirilən tədbirlərdən söz açıb. Bildirib ki, Ulu Öndərin məzunu olması ilə fəxr etdiyi, diqqət və qayğısını əsirgəmədiyi Bakı Dövlət Universitetində onun 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər - konfranslar, mühazirələr, görüşlər keçirilir, kitablar nəşr olunur, müsabiqələr təşkil edilir. Bugünkü konfrans da Bakı Dövlət Universitetinin Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbirlər planına müvafiq olaraq keçirilən növbəti tədbirlərdən biridir.

Rektor qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtması bütün sahələrdə olduğu kimi ölkə mediasının da inkişafında mühüm dəyişikliklərə səbəb oldu. Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olması, təhlükəsizliyin təmini, sosial-iqtisadi problemlərin tədricən yoluna qoyulması söz, fikir azadlığının qorunması sahəsində irəliləyişə zəmin yaratdı. Eyni zamanda, media fəaliyyətinin əsaslandığı qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində görülən tədbirlər mətbuatın, bütövlükdə medianın inkişafına yol açdı.

Ümummilli Lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanan Konstitusiyada mətbuata ayrıca diqqət yetirildi. Bununla da Azərbaycanda mətbuatın inkişafına əngəl yaradan bürokratik maneələr aradan qaldırıldı. Ulu Öndərin Sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olundu, habelə müvafiq struktur islahatları aparıldı. Bir sıra qəzetlərin Azərbaycan nəşriyyatına borcları ləğv edildi. Tədbirdə Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş "BDU-nun dünyaşöhrətli məzunu" adlı videoçarx nümayiş olunub.







Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, Ulu Öndər istər sovet dövründə, istərsə də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi vaxtda xalqımızın milli-mənəvi dəyərlərinin daha da möhkəmlənməsinə böyük önəm verdiyindən medianın işini, jurnalist əməyini yüksək qiymətləndirib: "Azərbaycan mətbuatı Ümummilli Liderin siyasi uzaqgörənliyindən irəli gələn dövlət maraqlarımızın qorunması, xalqımızın haqq səsinin dünyaya çatdırılması kimi əhəmiyyətli funksiyasını məsuliyyətlə yerinə yetirməkdədir. Ulu Öndərin müstəqil dövlət quruculuğu sahəsində müstəsna və əvəzedilməz fəaliyyətinin işıqlandırılması Azərbaycan mediasının əsas mövzusu olmaqla, dövlətçilik tariximizin canlı salnaməsini təşkil edir.



Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyamızda söz, fikir və məlumat azadlığı ilə bağlı konkret müddəalar əksini tapıb. Onun siyasi iradəsi və böyük səyləri nəticəsində Azərbaycanda plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılıb. Bunun bariz nümunəsi kimi Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 6 avqust tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda dövlət sirlərini mühafizə edən baş idarənin ləğv edilməsini göstərmək olar. Medianın fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılması, Azərbaycanda demokratik mətbuatın formalaşması və sürətli inkişafının təmin edilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır". Agentlik sədri həmçinin qeyd edib ki, hazırda Ulu Öndərin siyasətini və ənənələrini müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev medianın inkişafına əlverişli şərait yaradılmasını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid isə bildirib ki, Ulu Öndər Heydər Əliyevin milli jurnalistikamızın inkişafı sahəsində ən böyük xidmətlərindən biri KİV üzərində senzuranın tamamilə ləğv edilməsi olub. Ulu Öndər cəmiyyətdə jurnalistlərə münasibətin formalaşmasında önəmli rol oynayıb. Rəşad Məcid diqqətə çatdırıb ki, Mətbuat Şurası və BDU-nun Jurnalistika fakültəsinin birgə təşkilatçılığı ilə jurnalistlərin Ümummilli Lider Heydər Əliyev haqqında xatirələrindən ibarət kitab çap olunacaq.

BDU-nun Jurnalistika fakültəsinin Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli, Bakı Slavyan Universitetinin Jurnalistika kafedrasının müdiri Vüqar Rəhimzadə, Ulu Öndərin tərcüməçisi Çərkəz Qurbanovun qızı, Azərbaycan Dillər Universitetinin Beynəlxalq jurnalistika şöbəsinin müdiri Nərgiz Qurbanova, "ARB 24" telekanalının icraçı direktoru Radik İsmayılov, BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli çıxışlarında Ümummilli Liderin söz və məlumat azadlığının təmin edilməsi, mütərəqqi qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların müstəqilliyinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi sistemli tədbirlər nəticəsində Azərbaycan mediasının sürətli inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıblar.

Konfrans "Heydər Əliyev və Azərbaycan mediası", "Müasir dövrdə informasiya müharibəsi və media texnologiyaları", "Media savadlılığı cəmiyyətdə informasiya mübadiləsinin zəruri amili kimi" adlı bölmə iclasları ilə davam edib.

---

# "Ermənistan sülh sazişini imzalamaq məcburiyyətindədir"



"Ermənistan davamlı olaraq təxribatlar törədir. Təbii ki, növbəti dəfə nümayiş etdirir ki, Azərbaycanla sülh sazişi imzalamaq fikrində deyil. Ermənistanın bu təxribatları getdikcə daha intensiv xarakter alır. Qarşı tərəfin təxribatlar törətməkdə məqsədi ondan ibarətdir ki, regionda münaqişəni davam etdirsin. Çünki Ermənistan proseslərin sona çatmasında maraqlı deyil". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elşad Mirbəşiroğlu deyib.

Onun sözlərinə görə, əks halda Ermənistan sülh sazişini imzalamaq məcburiyyətindədir: "Belə olan halda proseslərə kənar güclərin müdaxiləsi də meydana gələcək. Bununla da Paşinyan yekun sülh sazişini imzalamaqdan bir müddət yayına bilər. Həm də Ermənistan Azərbaycan ərazisində yaşayan ermənilərlə bağlı guya hansısa təhlükənin mövcudluğunu nümayiş etdirmək istəyir. Çünki Azərbaycan tərəfi ölkəmizin ərazisində yaşayan ermənilərin vəziyyətinin heç kimlə müzakirə etməyəcəyini bildirib. Bu onun daxili işidir. Lakin bütün bunlara baxmayaraq



istər Ermənistan, istərsə də Avropa Azərbaycan ərazisində yaşayan ermənilərin vəziyyəti məsələsini beynəlxalq ictimaiyyətlə müzakirə olunmasında israr edirlər. Bu da yenə proseslərin məqsədli uzadılması üçün edilir. Ermənistan hazırki məğlub durumda sülh sazişini imzalamaqdan yayınmaq istəyir. Çünki Paşinyan yekun sülh sazişini imzaladıqda, Ermənistanda ona qarşı sərt çıxışların olacağını bildirir və hakimiyyəti itirmək təhlükəsinin olduğunu da dərk edir. Buna görə də Paşinyan üçün ən optimal variant Azərbaycanla yekun sülh sazişini imzalamaqdan yayınmaqdan davam etməkdir. Bunun üçün də müxtəlif təxribatlara əl atılır, Paşinyan zidiyyətli fikirlər səsləndirir".

***Səbinə Hüseynli***

# "MEDİA-nın onlayn və çap mediasına yardımı birbaşa Cənab Prezidentin mediaya olan diqqətinin təzahürüdür"

## Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə vəsaiti ilə bağlı media rəhbərləri arasında SORĞU

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən onlayn media subyektlərinə (veb-saytlara) dəstək layihəsi çərçivəsində elan edilmiş müsabiqənin nəticələri açıqlanıb. SİA mövzu ilə bağlı media rəhbərləri arasında sorğu keçirib.**

**"Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev:** "Media Agentliyinin qrantları saytların və xüsusilə də çap orqanlarının inkişafını təmin edən əsas mənbədir.Bu dəstək qəzet və saytların inkişafına yeni perspektivlər açır,dövlətçilik üçün çox vacib olan informasiya siyasətinin həyata keçirilməsinə kömək edir.Media Agentliyinin mətbuat orqanlarına dəstəyi əslində dövlətçiliyimizin inkişafına və möhkəmlənməsinə verilən dəstəkdir. Heç mübahisə yoxdur ki, Media Agentliyinin dəstəyi olmasa, media orqanları ayaq üstdə dayana bilməz, dayansa da elə mənbələrin təsirinə düşər ki, bu halda onlar dövlətçilik üçün o qədər də faydalı rol oynaya bilməzlər.Yəqin ki, bu amil nəzərə alınacaq və medianın dövlətçilikdə , informasiya savaşında vacib rolunu daha da gücləndirmək üçün media orqanlarının təminatı artırılacaq...



Agentliyin maliyə yardımı onu şərtləndirir ki, media orqanları daha üstün şəkildə dövlətçiliyin müdafiə mövqeyində dayana bilirlər. Mətbuat orqanları belə mövqe tutmaqla həm dövlətçilik mənafelərinə lazımı informasiya dəstəyi verə bilirlər, həm də özləri dövlətin himayəsi kimi əlverişli gücə söykənə bilirlər. Beləliklə , media orqanları ilə dövlətçilik mənafeləri arasında qarşılıqlı asılılıq və qarşılıqlı dəstək münasibətləri formalaşır.Müasir dünya siyasətində dövlət- media münasibətlərini məhz bu cür qarşılıqlı asılılıqda qura bilən ölkələr ümumən uğur qazana bilir, öz daxili tarazlıqlarını saxlaya bilirlər. Bu amil Azərbaycan üçün də çox vacibdir və biz bu güclü amilin əldə olunmasında Media Agentliyinin qrantlarının mühüm təsirli rolunu inkar edə bilmərik.Çox vacib nüanslardan biri də odur ki, Media Agentliyi qrantlar siyasətini optimal idarə edə bilir və onu işlək dinamik mexanizmlərlə həyata keçirir, zaman- zaman bu mexanizmin təkmilləşdirilməsi və yeniləşdirilməsi də əhəmiyyətlidir. Agentliyin maliyyə dəstəyi media orqanlarının inkişafı və bir institut kimi dövlətçilikdə iştirakının təmin olunması üçün vacib rol oynayır.



Çap media həm də milli sivilizasiyanın mühüm nailiyyəti olaraq ayrıca yanaşma tələb edir. Yəni çap mediaya dəstəyin fərqli bir istiqamət olduğunu unutmaq olmaz. Xüsusilə çap medianın vizual reytinqinin artırılması vacibdir. Yəni çap media orqanlarının daha yüksək estetik tərtibatla çıxmasını təmin etmək çox əhəmiyyətlidir. Qəzetlərdə kontent məsələsi insafən pis deyil və həm də məzmunca irəliləyiş dinamik xarakter alıb. Ancaq qəzetlərin estetik tərtibat meyarları müasir tələbatlar səviyyəsinə nisbətən yaxınlaşdırılsa çox yaxşı olar və bu amil qəzetlərin xəbər və təhlil göstəricilərinə də müsbət təsir göstərə bilər." Kaş bu qəzet daha keyfiyyətli kağızda, daha rəngarəng tərtibatla çap olunaydı" kimi rəylər tez- tez eşidilir.Təbii ki, bu, qəzetlərin maliyyə təminatının nisbətən artırılması sayəsində mümkün ola bilər.Yəqin ki, əlaqədar instansiyalarda bu nəzərə alınacaq".

**Editor.az saytının baş redaktoru Fərid Şahbazlı:** "Etiraf etmək lazımdır ki, Medianın İnkişafı Agentliyinin fəaliyyətə başlaması ilə ölkəmizin xüsusilə internet media məkanında ciddi bir canlanma müşahidə olunur. Media tərəfindən müsabiqələrin keçirilməsi və 40-a yaxın sayta maddi yardımın göstərilməsi şübhəsiz ki, həmin internet resurslarının fəaliyyətində ciddi keyfiyyət dəyişikliyinə səbəb olur. Təkrar xəbərlərin kəskin şəkildə azaldığını müşahidə edirik. İnternet media resursları artıq özləri ciddi surətdə xəbər istehsal etməyə başlayıb. Ümumiyyətlə, bir şeyi nəzərdən qaçırmaq olmaz ki, Medianın İnkişaf Agentliyinin fəaliyyəti yalnız müsabiqələr təşkil edib saytları maliyyələşdirməkdən ibarət deyil. Medianın İnkişafı Agentliyi daim jurnalistlər üçün təlimlər və kurslar təşkil edir. Bütün bunlar ortaya yaxşı nəticə çıxmasına səbəb olur".



**"Yeni sabah" saytının baş redaktoru Seymur Verdizadə:** "Son illər Azərbaycanda medianın inkişafı istiqamətində kompleks tədbirlər görülür. Medianın İnkişafı Agentliyinin bir sıra qəzet və saytlara maliyyə yardımı ayırması da bu kampaniyanın tərkib hissəsidir. Biz hər altı aydan bir analoji qərarların qəbul edilməsinin şahidi oluruq. Bu isə onu göstərir ki, mediaya dövlət dəstəyi epizodik deyil və davamlı xarakter daşıyır. Dövlətin mediaya davamlı olaraq maliyyə dəstəyi ayırması onun maddi texniki bazasının güclənməsinə və jurnalistlər arasında peşəkarlıq xüsusiyyətlərinin artmasına xidmət edir. Hesab edirəm ki, ayrılan vəsaitin təyinatı üzrə xərclənməsinə nəzarət edilməlidir. Doğrudur, hazırda ayrılan maliyyə yardımı qəzet və saytlar üçün bir o qədər böyük məbləğ sayılmır. 2024-cü ildə xüsusilə onlayn mediaya ayrılan vəsaitin artırılması tərəfdarıyam. Azərbaycanda gündəlik qəzetlərə aylıq 18 min manat maliyyə vəsaiti ayrılır. Onlayn media isə 7/24 işləyir. Bu baxımdan onlayn mediaya minimum 5, maksimum 10 min manat olmasını arzulayıram. Xahiş edirəm ki, Medianın İnkişafı Agentliyi bu təklifi nəzərdən keçirsin".



**7News.az saytının baş redaktoru Səbuhi Abbasov:** "MEDİA-nın onlayn və çap mediasına yardımı birbaşa Cənab Prezidentin mediaya olan diqqətinin təzahürüdür. Və burada əsas məqsəd çap mediasını ayaqda saxlamaq, eyni zamanda, onlayn medianın inkişafına töhfə verməkdən ibarətdir. Təəssüflər olsun ki, biz onlayn mediada uduzuruq, nəinki qlobal, regional səviyyədə belə rəqabətə qoşula bilmir. Ümumilikdə, dəstək olduqca vacib və əhəmiyyətlidir. Sadəcə mexanizmdə bir sıra ciddi nöqsanlar var. Onlayn mediaya ayrılan vəsait o qədər də çox deyil, cəmi 3 min manatdır və bu vısait maliyyəsi olmayan, perspektivli saytlara ayrılmalıdır. Təəssüf ki, bu mexanizm ilk mərhələdə düzgün qurulsa da, sonrakı mərhələdə milli maraqları şəxsi maraqlar əvəzlədi. Yardımın ciddi maliyyə imkanları olan saytlara ayrılması birbaşa təşəbbüsün məhv edilməsi, prosesin zədələnməsi ilə nəticələnəcək".



*Ləman Əlizadə*



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

# Makron Parisi "partladır"...

Fransa öz tarixinin təkcə ən təlatümlü dövrünü yaşamır. Fransa həm də öz dövlətçilik tarixində Emmanuel Makron kimi səriştəsiz, öz kiçik maraqları üçün bu boyda Fransanın milli maraqlarını Paris küçələrində tapdalayıb keçən birisinə görə XƏCALƏT hissi keçirir. Onu Brüsseldəki sülh danışıqlarından sonra erməni diasporu ilə təyyarədəki biabırçı telefon danışığına görə də, Afrika ölkələrinə səfər zamanı bütün dünyanın gözü qarşısında üzünə deyilən QIRMIZI HƏQİQƏTLƏRƏ görə düşdüyü rəzil vəziyyətinə görə də əla "xatırlayırlar". Xüsusilə, Fransadakı dələduz erməni biznesmenlərin girovu olan bu adam, açıq şəkildə onların təlimatları ilə hərəkət edir. 50-60 ildir Fransada kök salan erməni lobbisi bundan qabaqkı Fransa prezidentləri üçün də az önəm daşımayıb. Seçkilərdə milyonlarla dollar ianələr, ən kirli oyunları boynuna götürüb seçki kampaniyasına "dəstək olmaq"- bunların hamısı olub. Amma heç bir Fransa prezidenti erməni diasporunun əlində bu şəkildə OYUNCAĞA çevrilməyib, qırmızı xətti bu şəkildə keçməyib, Fransanı bu rəzillik cəngəlliyinə döndərməyib!

Bu, bir ölkənin tarixi üçün gerçəkdən utancvericidir. Bəs iki seçkidir bu ölkəni rəzil vəziyyətə gətirən birisinə niyə yenə səs verildi, prezident seçildi? Qərb demokratiyasının arxa tərəfindəki əcaib oyunlar da E.Makronun siyasi portreti kimi dəhşət şəkildə ziddiyyətlidir...

Belə çıxır ki, fransız xalqı bütün seçimlərdə, sadəcə, oyundankənar vəziyyətdədir, başqa heç nə. Seçkilərdə E.Makronun qarşısına qatı sosialist-radikal Marin Le Peni çıxarıb, fransızları "ən pisindənsə nisbətən pisi yaxşıdır" dilemması qarşısında qoyurlarsa, demək, Fransa "demokratiyasında" da bir yekə ƏMMA var. Daima Avropada yenilik və mədəniyyət lokomotivi kimi xatırlanan Fransa, bu gün dünyanın bütün qitələrində zibillik, zorakılıq və dağıntılarla dolu bir ölkə kimi yad edilir. Öncə "sarı jiletlilər", sonra da ümumi kütləvi xaos. Bir siyasətçi kimi Fransa bir yana, Qafqaz bölgəsində separatçılığı, terror qruplarını bu şəkildə himayə etməsi onun "idarəçilik" və siyasi obrazının ortada olan acı tablosudur. Gör E.Makronun erməni diasporunun əlində oyuncaq halına düşməsi elə şəkil alıb ki, hətta Ermənistanın baş naziri Nikol Paşinyan belə onun hədsiz ERMƏNİLƏŞMƏSİNDƏN cana doyub. Bilirsiniz E.Makron erməni diasporuna nədə şikayət edir? - N.Paşinyanın əsl erməni olmasından şübhələnməsi ilə...

Hazırda Fransa prezidenti olan bu şəxsin siyasi personası barədə, onun ədalətsiz və ermənipərəst mövqeyindən qəzəblənən azərbaycanlı kimi deyil, daha çox bir jurnalist olaraq fikir bildirəcəm. Əslində, mənim bu fikirlərimi E.Makronun qeyri-ciddiliyindən təngə gələn ən nüfuzlu və ictimai rəyə güclü təsir imkanları olan Fransa KİV-ləri də boy-boy nüsxələyir. Bu adam siyasətçi obrazından daha çox, yolunu azaraq təsadüfən Yelisey Sarayına soxulan dərvişi xatırladır. Nə şəxsi keyfiyyətləri, nə personası, nə siyasətçi ağırlığı E.Makronun Yelisey Sarayının sahibi olmasına imkan vermir. Neçə onilliklərdir peşəkar və usta siyasətçilər tərəfindən yönəldilən Fransa dövləti, bu gün tam fərqli görüntü içərisindədir. Şarl De Qollun, Jak Şirakın əzəməti ilə Makronun hazırkı əzik və diletant siyasi obrazını müqayisə etmək, ilk növbədə, elə vətənpərvər fransızlar üçün əsl xəcalət yaradır.

E.Makron kimi qeyri-peşəkarın ucbatından dünya siyasətindəki olan-qalan nüfuzunu da itirən Fransa, indi də erməni siyasətinin güdazına gedir. Əvvəlcə Avropa İttifaqının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilən görüşlərə başını soxan Makron, daha sonra da keçmiş Minsk qrupunu yenidən işə salmaq üçün DİLETANT səviyyəli cəhdlərə baş vurdu. Brüsseldəki danışıqlardan dərhal bir neçə saat sonra da çıxıb tam əksinə Nikol Paşinyanın ucuz vəkili kimi çıxış etdi. Bu adam tələyə düşmüş ov kimi hara gəldi çırpınıb yol axtarır. Əslində, öz erməni qardaşlarını "quyunun dibindən" çıxarmaq üçün çalışır müsyö E.Makron. Onun bu diletant siyasi gedişləri açıq şəkilə anti-Azərbaycan siyasətinə hesablanıb. Həm də Türkiyə faktoruna görə belə dəlisov şəkildə çırpınır müsyö Makron.

Bu adam Türkiyənin Azərbaycanın haqlı mövqeyini ardıcıl şəkildə dəstəkləməsindən o dərəcədə narahatdır ki, danışıqları pozmaq, erməniləri yenidən Azərbaycanla müharibəyə sürükləmək, xüsusilə, Türkiyənin bölgədəki ağırçəkili nüfuzunu zədələmək üçün hər yola baş vurur. Amma real və tutumlu siyasət ilə Makronsayağı qeyri-ciddi siyasi diletantlıq tamam başqa-başqa mövzulardır. Müsyö Jordan, ruhun agah olmamış olmaz: E.Makron Parisi PARTLADIR...

# İrəvan mühitinin yetirmələri



Qədim mədəniyyətə və zəngin ədəbi irsə malik şəhərlərindən biri olan İrəvan ədəbi-estetik fikrimizin inkişafında da böyük rol oynayıb. XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı, İrəvan da Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzi kimi tanınmışdır. İrəvan şəhəri Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olmuşdur. Bura məşhur şairlər, nasirlər, elm və mədəniyyət xadimləri yetişdirmişdir. XIX əsrin əvvəlində rus qoşunlarının şəhəri işğalından sonra qiymətli əlyazmaların böyük əksəriyyəti məhv edilmişdir. Əsasən məscidlərdə və mədrəsələrdə saxlanılan qiymətli əlyazmaların əksəriyyəti yandırılmışdır. İrəvan xanlığının ərazisində yeganə işlək dil Azərbaycan türkcəsi olmuşdur. Mənbələrdə göstərilir ki, İrəvan və Naxçıvan xanlıqlarının ərazisində 1829-1831-ci illərdə kameral siyahiyaalma keçirən rus tarixçi-statisti İ.Şopen "tatar dilinin" - yəni Azərbaycan dilinin yayılma arealı haqqında belə qənaətə gəlmişdir: "Bu məşhur dil haqqında bir neçə söz deməmək mümkün deyildir, hansı ki, Adriatik dənizindən tutmuş, Sakit, Hind və Atlantik okeanlarının sahillərinədək, Qədim Dünyanın üçdəbir hissəsində milyonlarla xalqlar bu dildə anlaşırlar". Böyük rus şairi M.Y.Lermontov Qafqazı gəzdikdən sonra bu qənaətə gəlmişdi: "Tatar dilini (yəni, Azərbaycan dilini) öyrənməyə başlamışam, fransız dili Avropada zəruri olduğu kimi, bu dil də burada və ümumiyyətlə Asiyada zəruridir". Görkəmli alimi Səməd Sərdariniyanın "İrəvan müsəlman sakinli şəhər olmuşdur" kitabında tarixi Azərbaycan torpaqlarında süni surətdə bir erməni dövləti qurulduğu, yüzilliklər boyu Azərbaycan şəhəri olan İrəvanın necə Ermənistan Respublikasının paytaxtına çevrildiyi tarixi-elmi faktlarla əksini tapır. İrəvanın məşhur Göy məscidi və digər məscidləri, Ermənistanda qalıqları mövcud olan islam abidələri, İrəvanlı alimlər və ruhanilər, görkəmli şəxsiyyətlər, şair və yazıçılar haqqında məlumatlar verilmişdir.

## DÖVRÜNÜN MƏDƏNİYYƏT MƏRKƏZİ

Elm və mədəniyyət tariximizə "İrəvani" təxəllüsü ilə daxil olmuş bir çox alim, ədəbiyyat və mədəniyyət xadimi bu xəzinəyə önəmli töhfələrini veriblər. Mirzə Qədim İrəvani, Fazil İrəvani, Balağa İrəvani, Mirzə Müslüm İrəvani, Aşub İrəvani, Mirzə Məhəmməd İrəvani, Dəlil İrəvani, Əbdülkərim İrəvani və başqaların bu sırada adlarını qeyd etmək olar. Çar Rusiyası dövründə İrəvan ədəbi-mədəni irsinin inkişafında Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, Eynəli bəy Sultanov kimi qabaqcıl fikirli ziyalıların əvəsiz rolu olmuşdur. Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər. Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra İrəvanın imkanlı və ziyalı elitasının xeyli bir qismi şəhəri tərk etmişdir. Tarixin müxtəlif dönəmlərində dövrünün tanınmış simaları soyqırıma və deportasiyaya məruz qalmış, dünyanın bir sıra ölkələrinə - Şimali Azərbaycan, Türkiyə, Orta Asiya, İran, Rusiya və digər ölkələrə üz tutmuşdular. İrəvan, dövrünün mədəniyyət mərkəzi olmuşdur. Evliya Çələbi hələ XVII əsrdə qeyd edirdi ki, Rəvanda qazı, molla, hörmətli şeyx, kələntər, daruqə, münşi, yasavul ağası, qorçubaşı, eşik ağası, dizçökən ağa, yeddi mehmandar və kəndxuda vardır.

## "NADİ" İMZASI İLƏ TANINAN PUBLİSİST

Bu gün İrəvan mühitinin yetirdiyi ziyalılardan söhbət açacağıq. Onlardan biri,

Mirbağırov Mirabbas Mirhüseyn oğlu. Kimdir o? Mirbağırov təqribən 1880-1885-ci illər arasında İrəvan şəhərində doğulmuşdur. Onunla bağlı mənbələrdə göstərilir ki, İrəvan gimnaziyasını bitirmiş, gənc yaşlarından qardaşı Mirabdulla ilə birlikdə kitab ticarəti ilə məşğul olmuşdur. Qardaşlar İrəvanda "Umud" kitab mağazasını açmışdılar. Mirabbas Mirbağırov gənc yaşlarından bədii yaradıcılıqla məşğul olmuşdur. İlk yazısı 19 iyun 1905-ci ildə "Həyat" qəzetində dərc olunmuşdur. Onun 1905-1929-cu illər arasında 200-ə yaxın publisist məqaləsi, xəbəri, bədii tərcüməsi işıq üzü görmüşdür. İlk vaxtlar "Həyat" və "İrşad" qəzetləri ilə sıx əlaqələr quran Mirbağırov sonralar "Təzə Həyat", "Tərəqqi", "Yeni İrşad", "İqbal", "Sədayi-həqq" qəzetləri ilə də yaxından əməkdaşlıq etmişdir. Ən çox işlətdiyi gizli imzası "Nadi" olmuşdur. Jurnalistlik fəaliyyətini sonrakı illərdə də davam etdirərək, Azərbaycan Cümhuriyyəti dönəmində "Azərbaycan", sovet hakimiyyəti dövründə "Kommunist", "Yeni yol" qəzetlərində, "Xalq maarifi", "Füqəra füyuzatı", "Maarif və mədəniyyət", "Azərbaycan Ali İqtisad Şurasının əxbarı", "Xalq müəllimi", "Qızıl qələm", "Əkinçi", "Maarif işçisi", "İqtisadi xəbərlər" jurnallarında məqalələri dərc edilmişdir.

## AZƏRBAYCAN TARİXİNDƏ "MİRBAĞIROV MİSSİYASI"

Mirabbas Mirbağırov da İrəvanda teatrın özülünü qoyanlardan biri olub.

Mirabbas Mirbağırovun 1913-1914-cü illərdə 6-sı orijinal, 1-i tərcümə olmaqla 7 kitabı nəşr edilmişdir. O, "Osmanlı tarixinin mühüm səhifələri" (Bakı, 1913), "Osmanlı hökumətinin qüdrətli günləri" (1913), "Tarix səhifələri. I. İslam pulları. II. Misir ölkəsi və tarixi" (1914), "Cənab Yusif və macərayiməşhuru" (1914), "Osmanlı marşları, Vətən və millət nəğmələri" (1914) və başqa kitabların müəllifidir.Azərbaycan Xalq Cümhuriyyəti dövründə İrəvan quberniyası Həmyerlilər Cəmiyyətinin qərarına əsasən və Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu ilin yanvarında yerli əhalinin problemlərini öyrənmək üçün M.Mirbağırovun rəhbərliyi ilə Naxçıvana nümayəndə heyəti göndərilmişdir. Əhali Azərbaycan Xalq Cümhuriyyətinin elçilərini böyük ruh yüksəkliyi ilə qarşılamışdı. 1919-cu il fevralın 22-də M.Mirbağırovun başçılıq etdiyi nümayəndə heyəti Naxçıvanda ingilis general-qubernatoru ilə görüşərək, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvanla bağlı mövqeyini onun diqqətinə çatdırmışlar. Naxçıvanda hakimiyyətin sonrakı taleyi ilə bağlı Cəfərqulu xanın iqamətgahında keçirilən görüşdə Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti ilə yanaşı, ingilis general-qubernatoru da iştirak etmişdir. Azərbaycan hökumətinin nümayəndələri Cəfərqulu xanın başçılıq etdiyi hökuməti tanıdıqlarını bildirmişlər. Naxçıvanın könüllü olaraq Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi haqqında tərtib olunan Aktın mətninin hazırlanmasında iştirak etmişdi. Siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələlərə aid bəndlərdən ibarət akt hökumət və Milli Şura üzvləri, əhalinin nümayəndələri tərəfindən imzalanaraq, hökumət möhürü ilə təsdiq edilmişdi. Nümayəndə heyətinin Naxçıvanda gördüyü işlər Azərbaycan tarixinə "Mirbağırov missiyası" kimi daxil olmuşdur.M. Mirbağırov sovet hakimiyyətinin ilk illərində ASSR Xalq Ərzaq Komissarlığı sistemində, 1923-cü ildən "Kommunist", 1924-cü ildən "Yeni yol" qəzetlərində, 1925-ci ildən 1929-cu ilədək "Maarif işçisi" jurnalında çalışmışdır.Onun əsərləri indi də öz elmi dəyərini saxlayır. Bu əsərlər onun iqtisadçı, etnoqraf, coğrafiyaçı, sənətşünas, ədəbiyyatşünas, dilçi, pedaqoq, tarixçi kimi ensiklopedik biliyə malik olduğunu göstərir.1930-cu ilin əvvəlində özünün və qardaşlarının ailəsi ilə birlikdə Türkiyəyə köçdüyü güman edilir. İrəvanda yazıbyaradan azərbaycanlılar öz istedadları ilə ədəbi mühitimizə, tariximizə parlaq səhifələr həkk etmişdilər.

***Zümrüd BAYRAMOVA***



## MEDİA-nın növbəti könüllülük proqramı uğurla yekunlaşıb




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dördüncü könüllülük proqramı uğurla yekunlaşıb. SİA xəbər verir ki, mart - iyun aylarını əhatə edən proqramın məqsədləri gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların təcrübi biliklərini artırmaq, yaradıcı-innovativ potensialını stimullaşdırmaq olub. Proqram çərçivəsində könüllülər fərdi və peşəkar inkişaf təlimlərində, yerli və beynəlxalq tədbirlərdə, sosial aksiyalar və layihələrdə iştirak edib, həmçinin MEDİA Agentliyinin tədbirlərinin təşkilinə dəstək göstəriblər.

Könüllülük proqramının yekunlaşması ilə bağlı MEDİA könüllüləri ilə görüşən Agentliyin İcraçı direktoru Əhməd İsmayılov proqramın nəticələrini müzakirə edib və məzun könüllülərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Proqramı uğurla bitirən könüllülərə sertifikatlar təqdim olunub.

# Fransa ilə demokratiya arasında
# BÖYÜK UÇURUM

Avropa, əlalxüsus da Fransa bir çox ölkələrdə demokratiya ilə bağlı daim narazılıq ifadə edir, bununla bağlı təəssüf hissini də açıq şəkildə bəyan edir. Hətta digər ölkələrdə demokratiya ilə bağlı vəziyyəti bəyənmədiklərini də qeyd edərək, hökumətlərdən müəyyən ”ümumbəşəri normalara” riayət etməyi tələb də edirlər. Xüsusən də Fransa prezidenti Makron Cənubi Qafqazda demokratiya ilə əlaqədar vəziyyətlə bağlı tövsiyyələr də verməyi özünə rəva bilir, halbuki elə Avropanın düz ortasında, Fransanın özündə demokratik normaların kobud şəkildə pozulduğunu sanki görmür, ya da görmək istəmir.

İnsan haqlarını və demokratiyanın vəziyyətini böyük canfəşanlıqla qiymətləndirmək həvəsində olan Makronun ”avtoritarizm” təhlükəsinə qarşı xəbərdarlıq etməsi hədsiz dərəcədə gülünc görünür və hətta öz ölkəsində olanlar, cərəyan edən hadisələr fonunda onun bu istəyini təzad kimi də qiymətləndirirlər. Əvvəla ona görə ki, məsələn, Cəbuni Qafqaz ölkələrindən biri olan Azərbaycanda müşahidə olunan demokratiya ənənəsi bir örnək, bir nümunə hesab olunur. Digər tərəfdən də bizdə olan demokratiya Fransanın özündə belə müşahidə edilmir axı. Məgər Makronun öz ölkəsi demokratik dəyərlərə belə riayət edir ki, onun hansısa ölkələrə demokratiya dərsi keçmək haqqı olsun? Bu zamana qədər dünya ictimaiyyəti bunun, yəni Fransada demokratiya deyilən ali dəyərlərə həmin ölkə hakimiyyətinin sayqı ilə yanaşdığının şahidi olmayıb axı.

Çoxluğun hakimiyyəti iddiasında olan Fransa dövlətinin rəhbərləri öz əhalisinin əksəriyyətinin dəstəyinə arxalandığını iddia edə bilərlərmi? İddia edə bilməzlər. Çünki demokratiya mücərrəd liberal-demokratik dəyərlər haqqında fəlsəfədən ibarət deyil. Demokratik dəyərlərə hörmət edən ölkə ilk növbədə öz vətəndaşlarının maraqlarını, çoxluğun istəklərini, haqlarını müdafiə etməlidir, özü də sözdə deyil, əməldə. Necə ki, bunu elə fransalılar özləri Azərbaycanda müşahidə edirlər. Təsadüfi də deyil ki, bizdə hakimiyyətlə xalq arasında birlik, həmrəylik var və məhz bizim ölkəmizdə dövlət öz ölkəsinin vətəndaşlarının, əhalisinin dəstəyinə arxalanır. Amma bunu Fransa barəsində demok mümkün deyil. Ona görə ki, Fransa hökuməti həmvətənlərinin aktual problemlərini həll etməyə sanki heç vaxt tapmır və ümumiyyətlə, onların fikrlərinə məhəl də qoymur, saymazlıq edir. Bu vəziyyətdə demokratiyadan dəm vurmaq belə təzad deməkdir. Əgər Avropanın düz ortasında, Fransada hökumətin belə saymazlığına cavab olaraq vətəndaşlar küçələrə çıxır, iğtişaşlar törədir və hökumət binalarına hücum edirlərsə, bu ölkədə demokratiya haqqında danışmağa dəyməz. Çünki görünən odur ki, Fransa ilə demokratiya arasında uçurum göz önündədir.

Etirazçılara qarşı zirehli maşınlardan və vertolyotlardan istifadə olunan dövlətdə hansı demokratiyadan danışmaq olar? Belə bir dövlətin ən parlaq nümunəsi elə Fransadır. Bu ölkədə pensiya islahatları ilə bağlı aylarla davam edən kütləvi etirazlar bitməyə vaxt tapmamış yeni bir məsələ ortaya çıxdı. Fərqli formatda və məcrada iğtişaşlar başladı. Fransa polisinin 17 yaşlı gənci güllələyib öldürməsindən sonra gənclər hər gecə polislə ”döyüşməyə” başlayıb. İndi bu ölkənin düz ortasında narazı kütlə avtomobilləri və ictimai binaları yandırmaqla öz narazılığını ifadə edir. Fransa hakimiyyəti isə bunun qarşısını güc yolu ilə almağı tərcih edir, doğru sayır. Bu ölkədə nümayişçilərə qarşı təkcə polis xüsusi təyinatlılarından deyil, həm də zirehli texnikası olan helikopterlərdən belə istifadə edilir. Bunun fonunda həmin ölkə hakimiyyətinin, şəxsən Makronun demokratiyadan danışmağa mənəvi haqqı belə çata bilərmi? Bilməz.

Zorakılığın və qırğınların yeni dalğası 2005-ci ildən müşahidə ediləndən indi daha böyük miqyasdadır. Bu dağıdıcı hərəkətləri müəyyən assosial elementlərin cinayət meyilləri olaraq izah etmək, yaxud təqdim etmək sadəcə olaraq mümkün deyil. Bütün bu hadisələr onu deməyə əsas verir ki, Fransa, məhz həmin cəmiyyətdə özləri üçün heç bir perspektiv görməyən, sosial müavinətlər və qeyri-müəyyən iş yerləri hesabına acınacaqlı həyat sürməyə məcbur olan gənclərlə, insanlarla doludur. Bəli, indi onların atdıqları daşdır, seçki bülleteni deyil və buna görə günahı onlarda axtarmaq özü də absurd yanaşmadır. Fransa hökumətinin belə bir yanaşması doğru deyil, çünki bunun günahı hökumətdədir. Əgər Fransa hökuməti günahı nümayişçilərdə axtarırsa, deməli, elə demokratik dəyərlərə özü hörmətsizlik edir. Məgər indi müşahidə olunan iğtişaşlar, narazı nümayişçilərin ortaya çıxması birdən-birə baş verib? Xeyr, qətiyyən. Diqqətə çatdıraq ki, 2018-ci ildə başlayan və getdikcə dərinləşən ”sarı jiletlilər” etirazlarını ”pensiya etirazları” əvəz etdi. Yəni bu etiraz dalğası həmin etirazların bir növ davamı oldu. Bütün bu proseslər onu deməyə əsas verir ki, Fransa hökumətinin demokratik mandatı çoxdan şübhə altına alınıb, özü də ilk növbədə fransızlar tərəfindən. Yəni bu Avropa ölkəsi ilə demokratiya arasında böyük uçurumun olduğu elə fransızların özləri tərəfindən də qəbul olunur.



Prezident Makron qlobal siyasət oyunu oynamaqdansa, Cənubi Qafqazdakı proseslərə müdaxilə etməkdənsə, əsl demokratik siyasətçinin ümdə vəzifələrini, öz ölkəsi ilə bağlı ilk növbədə nə etməli olduğunu nəzərdən qaçırmamalıdır. Bu ölkənin lideri ən elementar vəzifə olaraq, iqtisadi və sosial problemlərin həlli barədə düşünmürsə, bəs onda başqalarının işinə niyə burnunu soxur? Hansısa Afrika ölkəsinə ”sülhməramlılar” göndərmək demokratik ölkə olmaq demək deyil. Yaxud, bir xristian ölkəsi olan Ermənistanı öz ölkəsindən daha böyük canfəşanlıqla guya ”qorumaq” barədə iddialılıq çox gülünc görünür. Öz vətəndaşlarının, fransızların halına yanmayan birinin erməni təəssübkeşliyi özü belə təzad olaraq qiymətləndirilir. Nəhəng və qlobal sosial məsələlərlə bağlı fikirlər bildirən Fransa lideri daxili vəziyyəti vecinə almırsa, buna nə ad vermək olar? Yaxud, öz vətəndaşının hüquqlarının tapdalanmasını çox böyük saymazlıqla seyr edən, hətta vətəndaşın özünü, ölkəsinin narazı kütləsini günahkar bilən bir ölkə liderinin, Fransa prezidentinin özünü ermənilərin haqq və hüquqlarının müdafiəçisi kimi göstərməsi təkcə gülünc görünmür, həm də ən azından dona girmək kimi görünür. Çünki öz vətəndaşının haqlarının müdafiəçisi olmayan bir ölkə liderini başqa bir ölkə vətəndaşlarının hüquqlarının müdafiəçisi kimi heç kim qəbul edə bilməz.

Sanki Fransa prezidenri öz vətəndaşlarının narazılığına, hətta qəzəbinə belə məhəl qoymamağa öyrəncəlidir. Kiçik bir əyalətdə deyil, düz Marseldə baş verən iğtişaşlar sanki onun vecinə də deyil. Makron sosial problemlər içində boğulan, daim iğtişaş və zorakılığın episentrlərindən birinə çevrilən ölkəsində həmvətənlərinin problemlərinin həlli yollarını axtaran biri kimi görünmür. Əksinə, narazı kütləni, etirazçıları günahlandırır və onlara qarşı sərt tədbirlərin görülməsini doğru hesab edir. Öz vətəndaşlarının vəziyyəti ilə bağlı qətiyyən maraqlanmayan Fransa kimi bir ölkənin lideri ölkəsində erməni diasporunun radikal fəalları ilə, daha dəqiq desək, Daşnaksütyun üzvləri ilə görüşür, hansıki onların bəzilərinin Ermənistana belə girişi qadağan edilib. Ən təzadlı məqam odur ki, görüş zamanı Makron Azərbaycan-Ermənistan nizamlanmasına müdaxilə etməkdə qərarlı olduğunu bəyan edib. Bu ölkənin lideri ilk dəfə İrəvana hərbi attaşe göndərməsinin səbəbsiz olmadığına eyham vurmaqla yanaşı, utanmazcasına vurğulayıb ki, Azərbaycan tərəfinə Paşinyandan daha çox ”təzyiq” edir. Fransa prezidentinin başa düşdüyü demokratiya budurmu? Yaxud bu ölkənin lideri demokratiya dedikdə, öz ölkəsinin narazı və etirazçı vətəndaşlarının səsini zor gücü ilə boğması fonunda erməni təəssübkeşliyini demokratiya sayır? Fransızlar Makrondan onun daşnaklarla görüşünü, ermənilərin məsələlərinin müzakirəsini deyil, ölkə vətəndaşlarının, özlərinin problemlərinin həllini gözlədikləri halda, buna məhəl qoyulmadığını görürlərsə, buna görə də hiddətlənərək iğtişaşlara meyilli olurlarsa, onlara qarşı da zor tətbiq olunursa, bu ölkədə demokratiyadan dəm vurmağa dəyməz və bunu həmin ölkənin vətəndaşları da, hakimiyyəti də, elə lideri də yaxşı bilir. Belə olan halda başqa dövlətlərdə demokratiya ilə bağlı vəziyyətə onların ağız büzməsi ən azından həyasızlıqdır.

Bir çox müşahidəçilər hadisələrlə bağlı qeyd edirlər ki, Makron öz adi taktikasına sadiq qalaraq, onun şərtlərinə, tələblərinə etirazçıların razılaşacağı, güzəştə gedəcəyi məqama qədər gözləmək qərarına gəlib. Yəni, Fransa liderinin etirazçıları, onların tələblərini də, vəziyyətlərini də nəzərə almaq kimi bir niyyətinin olmadığı qeyd olunur. Niyyətinin nədən ibarət olduğu elə əslində polis zorakılığının miqyasında belə özünü göstərir. Bu elə onun narazılıqlara, vətəndaşlarının tələbinə cavabıdır, amma demokratiya deyil. Parisdə nə qədər ”demokratik dəyərlər” barədə danışılsa belə, ”avtokratik rejimlər” barədə fikir səsləndirilsə belə, buna çətin ki, bundan sonra məhəl qoyan ola. Çünki fakt budur ki, Fransa vətəndaşlarının kütləvi şəkildə etirazları və bu etirazların zor gücünə boğulması göz önündədir və belə olan halda nə demokratiyadan danışmaq olar, nə də başqalarına irad tutmaq. Polisdən qaçmaq istəyərkən iki Şimali Afrikalı yeniyetmənin öldürülməsi də, bu dəfə polisin Əlcəzairdən olan mühacir nəslindən 17 yaşlı Naeli öldürməsi də heç bir ölçüyə-biçiyə sığışmır. Yolda yoxlama aparan polis məmurunun 17 yaşlı Əlcəzairli mühacir Nael Merzuku güllələməsi, hüquq-mühafizə orqanlarının əməkdaşlarının Naelin onların tələbi ilə maşını saxlamaqdan imtina etməsini bəhanı gətirməsi, Fransa hakimiyyətinin də məmuru müdafiə edərək güllələnəni günahlandırması nə demokratiyaya uyğun gəlir, nə insan haqlarına, nə də ən adi və sadə məntiqə. Çünki polis hər maşını saxlamaq istəməyənə atəş açmalı olsa, bütün dünyada hər gün yüzlərlə, hətta bəlkə də minlərlə günahsız insan həlak olardı. Bu baxımdan istənilən halda və məqamda Fransa polisinin bu hərəkətləri cinayət kimi görünür, amma təəssüf doğuran odur ki, ibtidai istintaq yeniyetmənin ölümünün hüquq-mühafizə orqanları əməkdaşlarının silahla düzgün rəftar etməməsinin nəticəsi olduğunu artıq sübut etməsindən sonra da Fransa lideri polisin hərəkətlərini pisləmir belə. Bəlkə də Fransa prezidenti polisin günahı ilə bağlı hansısa ifadələr səsləndirsəydi etirazçıların hiddəti birtəhər soyuda bilərdi, amma o bunun əvəzində yanğını benzinlə söndürməyə üstünlük verərək, nazirliklərarası böhran qrupunun iclasında etirazçıların hərəkətlərini pisləyib və hətta qarşısının zorla belə alınacağını bildirib. Bu, demokratiya deyil, Makronun və ümumilikdə Fransa hakimiyyətinin demokratiyanı ələ salmasıdır. Çünki məhz Makron və onun hakimiyyəti polisin özbaşınalığını da, zorakılığını da haqlı hesab edir, halbuki belə zorakılıqlara haqq qazandırmaq olmaz. Əks halda bu ölkədə demokratiyadan danışmaq çox absurd səslənər, necə ki, səslənir. Yeri gəlmişkən onu da diqqətə atdıraq ki, indiki nümayişlərdə iştirak edənlər arasında çoxlu sayda yerli avropalılar da var və bu da onu deməyə əsas verir ki, Fransada vətəndaşlara qarşı etnik və dini zəmində ayrı-seçkiliyin olduğunu başa düşən, qəbul edən sağlam qüvvələr yetərincədir və Fransa ilə demokratiya arasında böyük uçurumun olması barədə bizim qeyd etdiklərimiz heç də qeyri-adi deyil.

***İnam Hacıyev***

# Vaşinqtonda kim uduzdu, kim uddu?..

*ABŞ Azərbaycanla Ermənistan arasında münasibətlərin nizamlanmasında əsas vasitəçiyə çevrilir*



Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında iyunun 27-də Vaşinqtonda başlayan danışıqlar yenə də uzun çəkdi. Bu ehtimalı ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller hələ görüşdən əvvək keçirdiyi brifinqdə bildirmişdi. Danışıqlar Ermənistan müxalifətinin İrəvanda Azərbaycandan Qarabağa gedən yolu açmaq üçün təsirli tədbirlər görməsini tələb edən aksiyası fonunda keçirilirdi. Eyni zamanda, İrəvanda 44 günlük müharibənin şəraitini araşdırmaq üzrə parlament komissiyasının iclası da öz işinə başlamışdı. Danışıqlar prosesində hər zaman özünü daha aktiv göstərməyə çalışan Rusiyada üsyandan sonrakı ab-hava hökm sürsə də yenə də bir gözü Vaşinqtonda idi. Çünki vəziyyət hər an dəyişə, Rusiyanın Cənubi Qafqazda qalıb-qalmayacağı məsələsi dövrəyə girə bilərdi.

Baş nazir Nikol Paşinyan parlamentin istintaq komissiyasının iclasında sualları cavablandırarkən deyib ki, o, müharibə ehtimalının yüksək olması ilə bağlı Milli Təhlükəsizlik Şurasından mütəmadi xəbərdarlıqlar alır. Bu barədə beynəlxalq tərəfdaşlar da məlumat veriblər. Hətta İrəvandakıların iddialarına görə, türk pilotlar qarşıdan gələn mühüm əməliyyatla bağlı etdikləri söhbətin səs yazısı da artıq onlardadır. Paşinyan keçmişə qayıdaraq etiraf edib ki, o, müharibədən yayınmaq vəzifəsində uğursuz olub. Eyni zamanda, hərbi uğursuzluğun səbəblərindən danışaraq, onlardan biri kimi Ermənistan ordusunun qeyri-kafi hərəkətliliyini göstərib. Parlament komissiyasının iclası bir gündən çox çəkib. Bu arada "Daşnaksütyun" Erməni İnqilabi Federasiyası (ARFD) ABŞ, Rusiya, Fransa və Avropa İttifaqının səfirlikləri qarşısında "Qarabağın tam mühasirəyə alınması üçün tədbirlərin görülməsi"ni tələb edərək gecə-gündüz oturaq aksiyaya başladığını elan edib.

Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqlar başlamazdan əvvəl Bakı Ermənistanla sərhəddən Qarabağa gedən yolda gediş-gəlişi təmin edib. Xankəndidən Ermənistana ağır xəstələrin daşınması bərpa edilib. Bu Qırmızı Xaç tərəfindən həyata keçirilir. Enerji təchizatı ilə bağlı vəziyyət bir qədər yaxşılaşıb. Bununla belə, mağazalarda hələ də məhsul qıtlığı var. "İravunk" (Qanun) nəşrinin yazdığına görə, hətta Rusiya sülhməramlıları da qida problemi yaşamağa başlayıblar. Azərbaycan tərəfi kontingentin komandanlığına onun nəzarətində olan Ağdam şəhərində ərzaq almağı təklif edib.

Erməni tərəfi yazırdı ki, Vaşinqtonda nazirlərin görüşündə Qarabağa gedən yolun bütün yüklər üçün tamamilə açılacağı barədə razılıq əldə olunacaq. Ermənistan tərəfi Qarabağı Ermənistanla birləşdirən bu yolun tam açılması tələbi ilə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qərarını da tez-tez yada salırdı. AŞPA-nın iclasında qurumun sədri Tini Koks öhdəliklərlə bağlı danışarkən deyib ki, hamı Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır. "Lakin yolun bağlanması insanlar üçün ciddi fəlakətə səbəb ola bilər. Assambleya Azərbaycanı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə, Qarabağa yardımın çatdırılması üçün dəhlizi yenidən açmağa çağırır", - Koks vurğulayıb.

Amma Koks nədənsə yaxın tarixi unudur, nəinki humanitar yardım, daim ölümlə üz-üzə qalan azərbaycanlılar üçün niyə bu qədər canfəşanlıq etmir? Məgər, işğala məruz qalan, yurdu-yuvası talanan, öldürülən, zorla evindən qovulan, əsir-girov götürülən, mülkiyyət hüququndan məhrum edilən və hələ də yurduna dönə bilməyən azərbaycanlılar insan deyillərmi, onların hüququ yoxdurmu? Bu ayrıseçkilik siyasəti ilə avropalılar nə demək istəyirlər? İkili standartlar bəs deyilmi?

Ermənistan parlamentinin sədri Alen Simonyan isə jurnalistlərə müsahibəsində bildirib ki, Azərbaycan tərəfi də Ermənistanın ərazi bütövlüyünü tanıyıb. Simonyan qeyd edib ki, Azərbaycan liderinin bəyanatı erməni tərəfini qorxuya salıb: "Sülh müqaviləsi imzalanmayana qədər narahat gözləntilər var".

Qeyd edək ki, iyunun 26-da Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ABŞ dövlət katibi Antoni Blinkenin dəvəti ilə Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri çərçivəsində Ermənistanın xarici işlər naziri ilə "Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında ikitərəfli Saziş" layihəsi üzrə danışıqlar aparıb. Vaşinqton danışıqları Azərbaycan və Ermənistanın şərti sərhəd xəttində, həmçinin erməni icmasının yaşadığı Azərbaycanın suverenliyində olan ərazilərdə qarşılıqlı atışmaların baş verdiyi bir vaxta təsadüf edib. Azərbaycan Dövlət Sərhəd Xidmətinin məlumatına görə, iyunun 15-də Ermənistan ərazisindən açılmış atəş nəticəsində Laçın dövlət sərhədindən buraxılış məntəqəsində xidmət aparan Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi qulluqçusu yaralanıb. Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin məlumatına isə Azərbaycan sərhəd xidmətinin bir qrup hərbi qulluqçusunun Ermənistan ərazisində bayraq sancmaq məqsədilə Həkəri körpüsünə doğru irəliləməyə cəhd göstərdiyi və həyata keçirilən tədbirlər nəticəsində bunun qarşının alındığı deyilir. Bundan sonra Azərbaycan tərəfinin Ermənistanı ermənilərin yaşadığı Xankəndi şəhəri ilə birləşdirən avtomobil yolunu bağladığı bildirilib. Bununla yanaşı son günlər avtomobil yolundan humanitar məqsədlər üçün istifadə edildiyi barədə videolar yayılıb.

## "Saziş layihəsi üzrə irəliləyişə nail olunub"

ABŞ Dövlət katibi Antoni Blinken Vaşinqton görüşünün yekununda qeyd edib ki, iki tərəf "çox mürəkkəb" məsələləri müzakirə edib və dayanıqlı sülh razılaşması istiqamətində "ciddi irəliləyişə" nail olub.

Qeyd edək ki, mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında üçtərəfli formatda görüş keçirilib. Görüşdən sonra Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel bildirib ki, fikir mübadiləsi səmimi, açıq və nəticəyönümlü olub və əsas diqqət Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına yönəlib.

Azərbaycan və Ermənistan liderləri mayın 25-də Moskvada Rusiya prezidenti Vladimir Putinin iştirakı ilə üçtərəfli formatda görüşüb. İyunun 1-də Moldovanın paytaxtı Kişinyovda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Almaniyanın Kansleri Olaf Şolts və Fransanın Prezidenti Emmanuel Makron arasında qeyri-rəsmi görüş keçirilib. Görüşdən sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel deyib ki, danışıqlar çox məhsuldar keçib və iyulun 21-də Brüsseldə keçiriləcək görüşə yaxşı hazırlıq olub. Onun sözlərinə görə, tərəflər münasibətlərin normallaşması üzərində intensiv işləyir və bu formatda görüşü İspaniyada təkrarlamağı planlaşdırır.

İyunun 2-də Rusiya Baş nazirinin müavini Aleksey Overçuk, Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinlərinin sədrliyi ilə Moskvada üçtərəfli İşçi Qrupunun iclası keçirilib. Rusiya Baş nazirinin müavini görüşün yekunları ilə bağlı bildirib ki, Azərbaycan ilə Ermənistan arasında nəqliyyat əlaqələrinin bloklanmasının aradan qaldırılması üsullarının əlaqələndirilməsi sahəsində mühüm irəliləyiş məmnunluqla qeyd olunub. "Xüsusilə, Arazdəyən-Culfa-Meğri-Horadiz marşrutu üzrə dəmir yolu əlaqəsinin bərpası və təşkili üzrə konkret addımların həyata keçirilməsi ilə bağlı ümumi anlaşma əldə olunub.

Azərbaycan və Ermənistan ABŞ-ın vasitəçiliyi ilə aparılan sülh danışıqlarında irəliləyiş olduğunu bildirirlər. Məlumata görə, saziş layihəsinin əlavə maddələri üzrə razılıq əldə edilib. Tərəflər onu da bildiriblər ki, bəzi əsas məsələlər üzrə mövqelərin yaxınlaşması əlavə iş tələb edir. Yekunda çıxış edən ABŞ dövlət katibi Antony Blinken üç gün ərzində aparılan danışıqlarda "qazanılan tərəqqi" üçün Azərbaycan və Ermənistan nümayəndə heyətlərinə təşəkkür edib. "Biz ümumi və yekun nəticəyə nail olmaq məqsədi ilə müxtəlif diskret parçalar üzrə əlavə razılaşma yolu ilə bu görüşlər vasitəsilə əldə etdiyimiz sürətdən yararlanmaq üçün qarşıdakı həftələrdə də bu prosesi davam etdirməyi səbirsizliklə gözləyirik. Qarşıdakı həftələr və aylar ərzində yekun razılıq əldə olunacaq", - Antony Blinken bildirib.

"Xarici işlər nazirləri ilə görüşlər konstruktiv keçdi və biz, sülh danışıqları getdikcə, bu müzakirələri bu gün və sabah inkişaf etdirməyə davam edirik. Qrafikdə heç bir dəyişiklik yoxdur. Biz Qarabağda insan tələfatından çox narahatıq və bütün həlak olanların ailələrinə başsağlığı veririk. Bu son hadisələr hərbi əməliyyatlardan çəkinməyin və davamlı və ləyaqətli sülhə nail olmağın zəruriliyini göstərir", - ABŞ Dövlət Departamentinin mətbuat katibinin birinci müavini Vendat Patel deyib. Onun sözlərinə görə, ABŞ bu məqsədə çatmaqda tərəflərə yardım etmək öhdəliyi götürüb. "Dövlət katibi Antony Blinken bilavasitə sülh prosesinə cəlb olunub. Birbaşa dialoq problemlərin həlli və davamlı və ləyaqətli sülhə nail olmağın açarıdır", - Dövlət Departamentinin sözçüsünün müavini ötən gün jurnalistlərin suallarını cavablandırarkən deyib.

## Qarşıdan Moskva görüşü gəlir

Amerika görüşündən dərhal sonra ermənilər yenə iç üzlərini göstərdilər. Əməliyyat nəticəsində 5 erməni məhv edildi. Bundan sonra isə Ermənistan dövlətinin və onun rəhbərliyində təmsil olunanların daha çirkin oyunları və yalanları üzə çıxdı. Daha doğrusu yalanları növbəti dəfə sübuta yetirildi. Məlum oldu ki, Qarabağda, Rusiya sülhməramlılarının müvəqqəti səlahiyyət bölgəsində məhv edilən ermənilər heç də yerlilər deyil. Onların hələlik ikisi Ermənistan vətəndaşlarıdır. Azərbaycan Müdafiə Nazirliyi isə həmin gün yaydığı məlumatda "Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Azərbaycan ordusunun mövqelərinin atəşə tutulması nəticəsində bir hərbçinin" yaralandığını bildirib. Bu gün də tərəflər bir-birini dövlət sərhədində və Qarabağda təmas xəttində atəşkəsi pozmaqda ittiham edib.

ABŞ Dövlət Departamenti mətbuat xidmətinin rəhbəri Matthew Miller keçirdiyi brifinqdə dövlət katibi ilə Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşünü şərh edərkən bildirib ki, ABŞ əvvəlki kimi, sülhün əldə ediləbiləcəyinə inanır: "Biz hesab edirik ki, birbaşa dialoq qalan məsələlərin həllinin və möhkəm sülhə nail olmağın açarıdır".

Beləliklə, Azərbaycan və Ermənistan arasında Vaşinqtonda 4 günlük danışıqlar başa çatdı. Bəzi məqamlarla bağlı razılığın əldə edildiyi açıqlansa da, tərəflər arasında əsas bəndlərlə bağlı fikir ayrılıqları hələ də qalır. ABŞ-nin moderatorluğu ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin keçirdiyi bu görüşün nəticələrini necə qiymətləndirmək olar?

ABŞ təmsilçiləri Arlinqton danışıqlarının uğurlu keçdiyini desə də, ortada bunu göstərən heç nə yoxdur. Prezident İlham Əliyevin Şuşada keçirilən beynəlxalq konfransdakı açıqlamasından bəlli idi ki, orada böyük irəliləyişin olacağı gözlənilmir. Səbəb də Ermənistanın, ən əsası isə ona geosiyasi alət kimi yanaşanların Azərbaycanın Qarabağ üzərində suverenliyini hələ də həzm etmək istəməmələri ilə bağlıdır. Dövlət başçısının da vurğuladığı kimi, Ermənistan özü indi bizim ərazi bütövlüyümüzü tanımağa hətta "Qərbdəki bəzi dostlarından" daha meyllli görünür. Ona görə də həmin "dostları" "hay"ları reallığa uyğun hərəkət etməyə səsləməkdənsə, iransayağı revanşizmə həvəsləndirirlər. ABŞ-yə gəldikdə, rəsmi Vaşinqton Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsində, ən əsası isə Türkiyə ilə əlaqələrin tam da olmasa, normallaşmasında maraqlıdır. İlk növbədə ona görə maraqlıdır ki, belədə Rusiyanın Ermənistanda hərbi baza saxlaması zərurəti aradan qalxmış olur.

Brüssel və Moskva görüşlərindən fərqli olaraq Vaşinqton görüşü 4 gün davam etdi. Görüşlər həm ikitərəfli, həm də üçtərəfli formatda keçirildi. Ermənistanda 102 saylı hərbi bazanın olması, eləcə də bölgədə Rusiya sülhməramlı qüvvələrin xidmət apardığı bir müddətdə görüşün Vaşinqtonda keçirilməsi Rusiya tərəfindən həzm edilməyəcək. Qarşıdan Moskva görüşü gəlir. Əsas məqamların məhz Vaşinqtonda razılaşdırılması faktını nəzərə alsaq, yenə də Moskva görüşünün formal xarakter daşıyacağını indidən demək olar. Bununla yanaşı, artıq erməni və ABŞ mediasında görüşlərin bir sıra pərdəarxası məqamları bəlli olub. Belə ki, Azərbaycanın prinsipial mövqeyinin dəyişməz olması və ABŞ tərəfindən də bunun dəstəklənməsi Ermənistanda əsl xaos yaradıb. Qarabağ məsələsi Azərbaycanın daxili işi kimi qiymətləndirilib, orada yaşayan ermənilər etnik-milli azlıq kimi tanınıblar. Ermənistan XİN rəhbərinə də yüksək səviyyədə izah edilib. Sərhəddəki nəzarət buraxılış məntəqəsinin Azərbaycanın suveren hüququ olması Ermənistan tərəfinə çatdırılıb. Vəssalam...

**V.VƏLİYEV**

RAKURS

# AXCP zərbə dronuna məruz qalıb

## Əli Kərimlinin qurultayda alternativ namizəd olmadan sədr təyin olunması cəbhəçilər arasında yeni narazılıq yaradıb

30 ildən çoxdur ki, küçələrdə, meydanlarda veyillənən, aradabir ağızlarını açıb zibillərini ifraz edən dağıdıcı müxalif ünsürlər son günlər bir qədər avara həyat tərzlərini sosial şəbəkələr üzərində "fəaliyyət"lərini gücləndirməklə əvəzləyiblər. Bu da onu göstərir ki, müxalif dairələr xarici ağalarından yeni maddi yardımlar alıblar. Əks təqdirdə, isti yerlərini soyuq edib boşboğazlıq etməyə lüzum görməzdilər. Fakt inandırıcıdır ona görə ki, müxalifət heç bir açıqlamalanı və ya aksiyanı maliyyə yardımları əldə etmədən etməzlər. Uzun illərdir ki, müxalifətin dağıdıcı qanadı işlərini və fəaliyyətlərini anti-Azərbaycan dairələrin tələblərinə uyğun qururlar. Milli satqınlar əməkdaşlıq qarşılığında ağalarından külli miqdarda qrantlar alırlar.

### Əli Kərimli 22 ildir ki, eyni havanı ifa edir

Bir neçə gün əvvəl mətbuat vasitəsi ilə yayılan məlumatda ABŞ- ın NED təşkilatının Azərbaycan müxalifətinə bağlı olan siyasiləşmiş QHT-lərə 1 milyon 100 min ABŞ dolları qrant ayırması və paylanması da aşkarlanan və üzə çıxarılan növbəti faktlardandır. Bəzən bu qrantlar müxaliflər arasında çəkişmələrə, qarşıdurmalara səbəb olur. Başqa sözlə, dağıdıcı müxalifət və onlara bağlı olan siyasiləşmiş QHT-lər daxilində xaricdən qrant alınması və istifadəsi üstündə dərin ziddiyyətlər, dartışmalar, çəkişmələr mövcuddur. Müsavat- AXCP qarşıdurması da məhz qrant bölgüsü uğrunda aparılan mübarizədə qoyulub. Qrantla bağlı sözsöhbətlər də bu kimi qalmaqaldan sonra ortaya çıxır. AXCP fəalları Yadigar Sadıqov, Aydın Əliyev qeyd ediblər ki, müxalifət düşərgəsində imkanlı və geniş xarici əlaqələri olan qrant mafiyası var. Keçmiş AXCP funksioneri Razi Nurullayev isə bildirib ki, müxalifət daxilindəki qrant mafiyasının başında AXCP sədri Əli Kərimli dayanır. Mövcud sübutlara istinadən qeyd etmək olar ki, hazırda anti-Azərbaycan dairələrlə ən sıx əməkdaşlıq edən AXCP sədri Əli Kərimlidir. Əməkdaşlıq qarşılığında qazanılan maliyyə vəsaitini də Ə.Kərimli öz cibinə qoyur. Həmin çirkli pullar hesabına xarici ölkələrdə ailəsinə dəbdəbəli həyat quran Ə.Kərimli Türkiyədə, İngiltərədə obyektlər, bahalı evlər almağı da unutmur. Deyilənlərə və sosial şəbəkələrdə yazılanlara görə, iyulun 24-də keçirilən AXCP-nin şou xarakterli qurultayını da xarici maraqlı dairələr maliyələşdiriblər. Yəni, Ə.Kərimli qurultayın keçirilməsində də mənfəət əldə etməkdən çəkinməyib.



### AXCP-nin rüsvayçı qurultayı Əli Kərimlinin əcəl zəngi olacaq

AXCP-nin qurultayı adlı şousunda bir-birindən rəngarəng gülüş doğuran müzakirələr və qərarlarla yadda qaldı. İlk olaraq kürsüyə çıxan Ə.Kərimli yalnız ağlına deyil, ağzına gələnləri də danışdı. ABŞ-ı təriflədi, Qərb haqqında tərifli sözlər söylədi. Bircə o qaldı desin ki, Makron qardaşımdır, Bayden də ki, ağsaqqalım. Azərbaycanın əldə etdiyi parlaq hərbi, siyasi, diplomatik qələbəyə qısqanclıqla yanaşan qrant mafiyasının dəllalı, ancaq bu istiqamətdə şər və böhtanlar səsləndirdi. Onun bu cür çıxış edəcəyi gözlənilirdi. Xaricdən maddi və mənəvi dəstək alan Ə.Kərimlidən fərqli fikirlər gözləməyə də dəyməz. Ancaq bir məsələ diqqəti çəkirdi ki, Ə.Kərimli ötən qurultaydan sonra sədr olaraq partiya həyatı və üzvlərin siyasi fəaliyyətlərinin artırılması üçün hansı işlər görüb? Susdu, danışmadı. Çünki sosial şəbəkə fenomeni olmağa çan atan bu məxluq partiya həyatı üçün heç bir iş görməyib. Qurultay iştirakçıları da ona bununla bağlı sual vermədilər, sorğu da ünvanlamadılar. Bu da qurultaya ancaq Ə.Kərimliyə yaxın olan şəxslərin seçildiyini göstərirdi. Digər tərəfdən onu da qeyd etmək lazımdır ki, qurultay planlaşdırılmadan keçirildi. Yəni, yerlərdə qurultaya hazırlıq üzrə konfranslar keçirilmədi. Sadəcə, hansısa maraqlara görəsə xarici ağaları Ə.Kərimliyə AXCP-nin qurultayının keçirilməsi barədə göstəriş veriblər, o da göstərişi yerinə yetirmək məcburiyyətində qalıb. Ancaq qurultaydan sonra sosial şəbəkələrdə sıravi cəbhəçilərin apardıqları müzakirələrə əsaslanaraq demək olar ki, AXCP üzvləri qurultayın gedişindən və Ə.Kərimlinin yenidən sədrlikdə qalmasından narazı qalıblar. Bu narazılıq yeni istefa dalğasının yaranmasına gətirib çıxara bilər. Yəni, qurultay Ə.Kərimlinin əcəl zəngi ola bilər.

### "Qurultay daha çox muzdlu şəxslərin növbəti yığıncağı idi"

Vəhdət partiyasının sədri Tahir Kərimli "Səs" qəzetinə açıqlamasında Ə.Kərimlinin keçirdiyi mini-qurultayın şou xarakteri daşıdığını və bu şounun da Ə.Kərimlinin ziyanına işlədiyini bildirib: "Ə.Kərimli özünü sədr seçdi. Onun sədrliyi legitim deyil. Çünki AXCP adlı təşkilat artıq mövcud deyil. Bu qurultayda partiyanı yaradanlardan heç kəs yox idi. Bir sözlə, həmin yerə yığışanlar sədri qəbul edən şəxslər idi. Ona görə də, onların bu qurultayını Ə.Kərimlinin ətrafında olan muzdlu şəxslərin növbəti yığıncağı adlandırmaq olar".

T.Kərimli onu da bildirdi ki, Əli Kərimlinin qeyri-demokratik yollarla sədr seçiləcəyi əvvəlcədən bəlli idi: "Doğrudan da, AXCP-də antidemokratik mühit hökm sürür. Nəticədən narazı qalanlar çıxış yolunu AXCP-dən istefa verməkdə görürlər. Vəziyyət bir qədər də belə davam etsə, Əli Kərimlinin qrupu dağılacaq".

T.Kərimlinin qeyd etdiyi kimi, Ə.Kərimli saxta yolla sədr seçilib. Birincisi, Ə.Kərimlinin sədr kimi hesabatı qurultay iştirakçıları tərəfindən qəbul edilib-edilmədiyi məlum deyil. Bu barədə təşkilatçılar açıqlama vermirlər. İkincisi, Ə.Kərimli alternativ namizəd olmadan sədr seçilib. Demokratik dəyərlərdən, azad seçkidən dəm vurub, hay-küy salan Ə.Kərimlinin alternativ namizəd olmadan sədr təyin olunması təsdiq edir ki, Ə.Kərimlinin danışdıqları boşboğazlıqdan başqa bir şey deyil. Ətrafında olanlar ancaq onun dediklərini Tutuquşu kimi təkrarlayanlardır. Bu baxımdan, onun yanında siyasi fəaliyyəti ilə tanınmış şəxs yoxdur. Müstəqil fikir söyləyənlər AXCP-dən uzaqlaşdırılırlar. Elələri də olub ki, Ə.Kərimlinin AXCP-yə özünün şəxsi biznes obyekti kimi baxmasına etiraz edərək, partiyadan istefa verirlər. Misal kimi bu günlər AXCP fəalı və "Milli Şura" üzvü Vahid Məhərrəmlinin, AXCP üzvü Elçin Bünyatovun, Xasay Məmmədlinin və digərlərinin istefa vermələrini göstərmək olar. Yaxın günlərdə Təzəxan Mirələmlinin və Məmməd İbrahimlinin də AXCP-dən istefa verəcəkləri proqnozlaşdırılır. Çünki sözügedən şəxslər rüsvayçı qurultayın nəticələrindən narazı qalıblar. Artıq demək olar ki, AXCP-nin sonu yaxınlaşır. Bəlkə də qurultay gözlənilən fəlakətin aradan qaldırılmasına yardımçı ola bilərdi. Lakin Ə.Kərimlinin iddiaları, partiyaya özünün şəxsi obyekti kimi baxması problemin aradan qaldırılmasına imkan vermədi. Bu isə şansın qaçırılması və AXCP-nin arxivə göndərilməsi deməkdir.

**İ.ƏLİYEV**



Elçin Bayramlı

# Küçədən yığılan milyonlar

**Əgər sizin işiniz gün ərzində şəhərin müxtəlif yerlərinə baş çəkməkdən ibarətdirsə, o zaman halınız fənadır. Hər dəfə bir neçə dəqiqəlik dayananda- mağazadan su almaq, evdən nəsə götürmək üçün avtomobilinizi bir neçə dəqiqəlik küçədə saxlayıb qayıdanda gərək cibinizdə xeyli pulunuz olsun. Çünki hər dəfə "ərəbzəngilər" başınızın üstünü kəsdirəcəklər ki, "pul ver". Tələb olunan pul da nə az, nə çox düz 1 manatdır.**

Şəhərin mərkəzində işləyənlərin çoxu avtomobillərini saatı 1 manatdan yeraltı qarajda saxlamağa məcburdurlar ki, bunun da aylıq xərci minimum əməkhaqqından çoxdur. Bu, bazar iqtisadiyyatının gətirdiyi yenilik, daha doğrusu, problemdir. İnsanlar şəxsi avtomaşınlarını dayandırmaq üçün pul ödəməlidirlər. Bəs bu pullar hansı əsasla yığılır, məbləğ necə müəyyənləşir, vəsaitlər hara gedir?

İndi şəhərin az qala bütün küçələrinin kənarları zəbt edilib, pullu dayanacağa çevrilib. Bunların bir çoxunda dayanacaq pulunu qanuni faliyyət göstərən işçilər yığsa da, bəzilərində qoluna qırmızı lent bağlanmış, amma üzərində heç bir sənəd olmayan adamlar sürücülərdən pul yığır. Hətta bir çox yerlərdə, səkilərin üstündə maşın dayanacağı açıblar ki, nəticədə piyadalar maşın yolu ilə getməli olurlar.

Bu vəziyyətdən həm piyadalar, həm də sürücülər narazıdırlar. Sürücülərdən biri belə deyir: "Şəhərin hər yerini pullu dayanacaq ediblər, bəlkə mən maşınla gedirəm, pulum, ya da benzimin də qurtarıb, indi neyləyim, maşını göydə saxlayım? Öz şəhərimdə öz maşınımla gəzmək, maşınımı haradasa dayandırmaq üçün niyə kiməsə pul verməliyəm? Kimsə qoluna qırmızı lent bağlayıb gəlib yolun kənarında sürücülərdən pul yığır, heç kim də soruşmur ki, hanı sənin sənədlərin, nə əsasla pul yığırsan?"

Əksər küçələrdə əynində uniforma olan dayanacaq nəzarətçiləri fəaliyyət göstərir, amma sürücülərə çek vermirlər. Bu barədə soruşanda deyirlər ki, onlara çek vuran aparat təqdim edilməyib. Əksəriyyəti konkret işlədiyi idarənin adını, pulun hara çatdığını bilmir.

Bu pulyığanların dediyinə görə, dayanacaqların çoxu qanuni deyil, hərəsinin öz qeyri-rəsmi sahibi var. Onlara plan qoyulur və hər axşam gəlib pulu aparırlar. Nəzarətçilər gündə təxminən 15-20 manat qazandıqlarını deyirlər.

Bir sözlə, bir neçə saat müxtəlif dayanacaqlarda müşahidə aparmaq kifayətdir ki, milyonlarla pulun dövlət büdcəsinə çatmalı olduğu halda, başqa yerlərə getdiyinin şahidi olasan. Çünki heç bir çekdən, kassa aparatından söhbət belə gedə bilməz.

Rəsmi məlumata görə, Azərbaycanda 1,5 milyondan artıq avtomobil qeydiyyatdadır ki, onun da təxminən 1 milyonu paytaxtdadır. Gün ərzində bu maşınların heç olmasa yarısının bircə dəfə dayanacaqda saxlanması şəraitində təxminən nə qədər pul yığıldığını aydınlaşdırmaq olar. 500 min maşın sahibinin gündə 1 manat ödədiyi halda gündəlik 500 min, ayda 15 milyon, ildə 180 milyon manat vəsait toplanır.

Nəzərə alsaq ki, gün ərzində parklamaların sayı bundan 2 dəfə çox ola bilər, o zaman söhbətin daha iri məbləğdən gedə biləcəyi aydın olur. Yığılan vəsaitin heç olmasa yarısı yeraltı dayanacaqlar tikilməsinə sərf olunsaydı, şəhərdə tıxac probleminin həllinə xeyli kömək olardı. Lakin, bu pulun azı 90 faizinin şəxsi ciblərə getməsi şəraitində bundan söhbət belə gedə bilməz.

Nazirlər Kabinetinin "Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği"nin təsdiq edilməsi barədə son qərarına görə, paytaxt ərazisi zonalara bölünüb və zonaya uyğun vahid parklama qiymətləri olacaq. Bu, bir tərəfdən bu sahədə qayda yaradılmasına gətirəcəksə də, digər tərəfdən vətəndaşların xərcini artıracaq. İndiyədək heç olmasa bəzi yerlərdə maşınlarını pulsuz saxlaya bilərdilərsə, bundan sonra bu, mümkün olmayacaq. Gün ərzində şəhərdə bir neçə yerdə işi olan maşın sahibləri maaşlarının yarısını parklamaya ödəməli olacaqlar. Hesab edirik ki, şəhərdəki dayanacaq yerlərinin ən azı yarısı pulsuz olmalıdır. Dünyanın bütün böyük şəhərlərində belədir.

# "Fransada vətəndaş qarşıdurması etnik və dini zəmində baş verəcək"

"Hazırda Fransada yaşanan hadisələrin əsas səbəbi prezident Emmanuel Makronun ölkənin iri biznez şirkətlərinin sifarişi və dəstəyi ilə həyata keçirdiyi miqrasiya siyasəti və əlbəttə, cəmiyyət tərəfindən xüsusi narazılıqla qarşılanan pensiya islahatlarıdır". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, Makron Fransa iqtisadiyyatında rəqabət qabiliyyətliyi artırmaq məqsədilə iri biznesin dəstəyi ilə yuxarıdan inqilabın həyata keçirilməsinə çalışır: "Onun pensiya islahatları sosial layihələrə ayrılan vəsaitlərin həcminin azaldılmasına gətirib çıxarır. Bunu isə Makron bilərəkdən edir ki, aşağı pensiya təminatlarının müqabilində fransızları daha çox işləməyə məcbur etsin. Bu isə biznesdə əməyin istismarının gücləndirilməsinə şərait yaradır. Fransa zəhmətkeşləri, həmkarlar təşkilatları, solçu siyasi partiyalar tərəfindən olan sosial təzyiqi azaltmaq üçün isə Makron bilərəkdən miqrasiya siyasətini sosial gerçəkliklərdən çıxış edərək yox, iri biznesin maraqları ampluasında həyata keçirir. Halbuki, miqrant işçi quvvəsi çox ucuzdur. Bu isə pensiya yaşının yuxarı qaldırılmasını tələb edən fransızları düşünməyə məcbur edir. Çünki istehsalın aşağı düşmə ehtimalını Makron miqrantların hesabına alır. Nəticədə, fransızlar vəziyyətlə barışmalı və daha çox zəhmətə qatılmaq məcburiyyətində qalirlar. Miqrantların fərqli dünya və baxışları, onların mental dəyərləri, Fransa cəmiyyətindəki tolerantlıqdan sui-istifadə edərək özbaşnalıqları müəyyən problemlərə səbəb olur. Onların polis işçilərinin qanunlara əməl olunması ilə bağlı çağırışlarına əhəmiyyət verməmələri isə bir çox hallarda toqquşmalara gətirib çıxarır. Bütün bunlar



Makronun yuxarıdan keçirilən islahatlarının nəticəsi olaraq Fransada sosial dövlət və siyasi demokratiya kimi amilləri ciddi sınaq qarşısında qoyur. Üstəlik, perspektivdə millətçilik, antimiqrasiya meyillərinin güclənməsi Makronun əsas rəqibi Milli Cəbhənin lideri xanim Li Penin xeyrinə işləyir. Ümumiyyətlə, Makronun dövlət başçısı kimi siyasəti təzadlıdır. Fransanın Azərbaycanda yüzlərlə şirkəti işləyib öz dövlətlərinin büdcəsinə milya?dlarla vəsait ötürdükləri halda, Makron Ermənistanla münasibətlərə "bacı dövlət" ampluasından yanaşır. Azərbaycanın maraqları nəzərə alınmır. Nəticədə Azərbaycan prezidenti onun vasitəçiliyi ilə aparılan danışıqlardan imtina edir. Nəhayət, Ukraynanın silahlanmasına ayırdığı vəsaitləri öz ölkəsində sosial fondlara və əhalinin sosial ehtiyaclarının ödənilməsinə yönəltsə idi vəziyyət başqa cür olardı. Yəni, Makron bununla seçiciləri etimadını doğrultmuş olardı. Halbuki, indi Avropada demokratiyanın beşiyi sayılan Fransa vətəndaş qarşıdurması etnik və dini zəmində baş verəcək münaqişələr həddinə gətirilib çıxarılıb".

**GÜLYANƏ**

# Uğurlu dövlət siyasəti: vətəndaşların sosial rifahı

İqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı, aparılan davamlı iqtisadi islahatlar sosial sahədə əhəmiyyətli dərəcədə irəliləyişə səbəb olub. Təbii ki, bu inkişafın təməlində Prezident İlham Əliyevin Azərbaycanın hərtərəfli və dayanıqlı sosial-iqtisadi inkişafının stimullaşdırılması ilə bağlı imzaladığı fərman və sərəncamlar, təsdiqlədiyi dövlət proqramları dayanır. Ölkə rəhbərinin məqsədyönlü islahatları respublikada sosial-iqtisadi sabitliyin davam etməsinə, qeyri-neft sənayesində, kənd təsərrüfatında artım əldə olunmasına imkan verib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir". Bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik olan bir ölkəyə çevrilib. Aparılan siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı, vətəndaş rifahının təminatı prinsipi dayanır. Bu prinsip iqtisadi dividendlərin ilk növbədə əhalinin rifahına yönəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılması ilə təsdiqini tapır.










Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə, dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini əhatə edir. Cari ilin yanvar ayında Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı dövlətin yeni sosial paketinin işə başladığını təsdiqləmiş oldu. İmzalanan Sənəd bir daha təsdiq edir ki, ölkədə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlir.

## "SİYASƏTİMİZİN MƏRKƏZİNDƏ AZƏRBAYCAN VƏTƏNDAŞI DAYANIR"

Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Əlbəttə ki, həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Aparılan islahatlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq gerçəkləşir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Qeyd etdiyimiz Sərəncam ölkəmizdə son beş ildə artıq dördüncü sosial islahat paketinin icrasına başlanması yeni sosial islahat mərhələsinə keçidi təmin edir. Sərəncama əsasən, minimum əməkhaqqı 345 manata çatdırıldı və Vahid Tarif Cədvəli üzrə əməkhaqları artırıldı. Sərəncamla minimum aylıq əməkhaqqı 1 yanvar 2023-cü ildən 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırıldı.

Ötən illər aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. İqtisadi siyasətin əsasən, sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək, cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması Cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqəti çəkir. Azərbaycan öz daxili siyasətində insan amilinə xüsusi diqqət yetirməklə həm iqtisadi, həm sosial, həm də siyasi proseslərdə önəmli mövqe qazanıb. Cənab Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycanda dövlət siyasətinin prioritetini insanların yüksək rifah və firavan yaşaması təşkil edir. Bu, demək olar ki, müasir Azərbaycan dövlətinin siyasətinin əsas xəttini təşkil edir. Ölkə başçısı hər bir addımında, verdiyi bütün qərarlarda ilk olaraq, məhz insanları düşünür. "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır", - deyən Prezident İlham Əliyev əməli fəaliyyətində bunu göstərir. Əlbəttə, Azərbaycan dövləti, Azərbaycan Prezidenti hər zaman öz vətəndaşının yanındadır, onun firavan yaşayışını, təhlükəsiz həyatını təmin etmək gücündədir.



## ŞƏHİD AİLƏLƏRİNİN SOSİAL MÜDAFİƏSİ GÜCLƏNDİRİLİR

Qeyd etdiyimiz kimi, son 5 ildə 4 milyon vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunub. 1 milyon vətəndaşa məşğulluq xidmətləri göstərilib, 400 min nəfər münasib işlə təmin olunub, 62 min nəfər özünüməşğulluq proqramına cəlb olunaraq onlar üçün kiçik ailə təsərrüfatları yaradılıb. Postmüharibə dövründə şəhid ailəsi üzvləri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və müharibə iştirakçılarından ibarət 18 min şəxsin məşğulluğu təmin edilib.

Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyəti, o cümlədən müharibə əlilləri və şəhid ailələrini əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini, məhz müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Vurğulamaq yerinə düşər ki, Ulu Öndərin təşəbbüsü ilə "Şəhid adının əbədiləşdirilməsi haqqında" qanun qəbul olunmuşdu və bu qanun, məhz Heydər Əliyevin 1993-cü il tarixli Fərmanı ilə təsdiq edilmişdi. Bu gün Ulu Öndərin siyasi kursunu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. 2003-cü ildən bu günə kimi, görülən işlər bunu sübut edir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin 2018-ci il 19 aprel tarixli Fərmanı ilə şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi həssas qrupların sosial müdafiəsinin gücləndirilməsində mühüm addımlardan biri idi. 2019-cu il 28 yanvar tarixli Fərman isə, birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki Fərmanın icrasının nəticəsi olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrıldı. "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 15 aprel 2019-cu il tarixli Fərmanda isə müharibə veteranlarına Prezidentin aylıq 80 manat məbləğində təqaüdü təsis olundu.

## ŞƏHİD AİLƏLƏRİ QARŞISINDA MƏNƏVİ BORC

Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı Prezident təqaüdü verilir. Cənab Prezidentin göstərişi ilə şəhid ailələri mənzillə təmin olunur. Azərbaycan Prezidentinin 2014-cü il 20 iyun tarixli Sərəncamı müharibə əlilləri və şəhid ailələrinin dövlət tərəfindən mənzillə təminatı işlərinin sürətlənməsinə şərait yaradıb. "Keçən il bu istiqamətdə də önəmli addımlar atılmışdır, bu kateqoriyadan olan 1500 ailəyə dövlət tərəfindən mənzillər verildi" - deyən Cənab Prezident bildirib ki, 2021-ci ildə isə 3 min mənzil verildi: "Bu il də ən azı 1500 mənzil veriləcək. Beləliklə, hələ növbədə duran bu kateqoriyadan olan insanların hamısına dövlət tərəfindən mənzillər veriləcək Bu da müharibə yaşamış ölkələr arasında, belə demək mümkündürsə, bir bizim yeniliyimizdir. Çünki bir çox ölkələrdə belə praktika yoxdur. Biz bunu nə üçün edirik? Çünki bu, o ailələr qarşısında bizim mənəvi borcumuzdur və bu borcu imkan daxilində yerinə yetirməyə çalışırıq".

Qeyd edək ki, 2018-2023-cü illərdə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara postmüharibə dövründə 4760, bu il 260, ümumilikdə ötən dövrdə 13,6 minə qədər mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 324, ümumilikdə ötən dövrdə 7500-dən çox avtomobil verilib.

2023-cü ilin 1 yanvarından Prezidentin aylıq təqaüdü şəhid ailəsi üçün 600 manata çatdırılıb. Həmçinin əlilliyi olan şəxslərə yönələn həm müavinətlər, həm də təqaüdlər artırılıb. Belə ki, Prezidentin aylıq təqaüdü müharibə, 20 Yanvar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər üçün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 500 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 400 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 330 manata çatdırılmaqla bərabər, digər tərəfdən bütün kateqoriyalara aid əlilliyi olan şəxslər üçün müavinət də orqanizmin funksiyalarının 81-100 faiz, 61-80 faiz və 31-60 faiz pozulmasına görə müvafiq olaraq 270 manata, 220 manata və 150 manata çatdırılıb. Eləcə də ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslər üçün Prezidentin aylıq təqaüdü 300 manata, bu kateqoriyadan olan digər şəxslər üçün isə 200 manata çatdırılıb. Bütün bunlarla yanaşı, İkinci Qarabağ müharibəsində əlil olmuş hərbçilərimiz ən müasir protezlərlə təmin edilib. Bütün bunlar əlbəttə ki, Azərbaycanın sosialyönümlü ölkə olduğunun isbatıdır.Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının rifahı və mənafeyi dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İdeoloji bütövlük və milli birlik

## Ümummilli Lider Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli Fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı

Dünya azərbaycanlılarının birliyi milli mənafelər və dövlət maraqları kontekstində ortaya çıxan təbii tarixi zərurətdir. Müxtəlif ölkələrdə fəaliyyət göstərən icma və birliklərin vahid təşkilatda birləşdirilməsi dünya azərbaycanlılarının ümumi birliyinin təməl prinsiplərindəndir. Soydaşlarımız arasında mənəvi-ideoloji birliyin yaradılması, icmalar arasında əlaqələrin möhkəmləndirilməsi və bu sahədə mövcud olan siyasi, psixoloji maneələrin aradan qaldırılması məqsədi ilə həyata keçirilən tədbirlər müsbət nəticəsini vermişdir. Tarixi Vətənlə əlaqələr məsələsi dünya azərbaycanlılarının təşkilatlandırılmasının ən mühüm prinsipləri sırasındadır. Bu gün azərbaycanlılar dünyanın müxtəlif nöqtələrində yaşayır və öz fəaliyyətlərini məhz yaşadıqları ölkələrdə davam etdirirlər. Planetimizin qitələrinə səpələnmiş azərbaycanlılar digər xalqların nümayəndələrinin öz vətəninin inkişafı yolunda həyata keçirdikləri genişmiqyaslı layihələrin, tədbirlərin icrasında yaxından iştirak etməklə yanaşı, vətənimizin inkişafı, taleyüklü məsələlərdə yaxından iştirak edərək öz töhfələrini verirlər. Dünya azərbaycanlılarının təşkilatlanması, müstəqil Azərbaycan Respublikası ilə siyasi, iqtisadi, mədəni və mənəvi əlaqələrin inkişaf etdirilməsində bu qərar son dərəcə əhəmiyyətlidir. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək və ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Təbii ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycanda ideya əsas prioritetlərdən biri elan edilərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi idi.




Bildiyimiz kimi, Azərbaycan diasporunun tarixi bir neçə əsri əhatə edir. Belə ki, VII əsrin sonu-VIII əsrin əvvəllərində Xilafət ordusunun Azərbaycana yürüşü, İslam dininin yayılması ilə əlaqədar burada ərəbdilli elm və mədəniyyətin inkişafı, eyni zamanda onlarca azərbaycanlı mütəfəkkirin Yaxın və Orta Şərqin şəhərlərinə axını başlamış və bu proses diasporun yaranmasının təməlini qoymuşdur. Mənbələrə istinadən deyə bilərik ki, X-XIX əsrlər. Yaxın Şərqin elm və mədəniyyət mərkəzlərində əslən Azərbaycandan olan yüzlərlə alim və tələbənin biliklərə yiyələnməsi, milli təfəkkürümüzün region xalqlarının intibahında qabaqcıl mövqeyə çıxması sayəsində xaricdə məskunlaşması daha geniş vüsət almışdır. Onu da qeyd edək ki, Azərbaycan Demokratik Respublikasının süqutundan sonra xarici mühacirlər axını və Avropada Azərbaycan diasporunun təşəkkülü ilə bağlı olmuşdur. 1941-1945-ci illərdə II Dünya müharibəsi zamanı əsirlikdə və Sovet qəza maşının ölüm xofundan Vətənə dönə bilməyən azərbaycanlılardan ibarət icmaların yaranması diasporun formalaşmasında yeni mərhələ kimi səciyyələndirilir.

### "HAMIMIZ - SİZ DƏ, BİZ DƏ ÇOX İŞ GÖRMƏLİYİK Kİ, AZƏRBAYCANIN GÜCLÜ DİASPORU YARANSIN"

Ölkəmizdə milli diaspor fəaliyyətinin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən 1991-ci il dekabrın 16-da imzalanan "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" qərarla qoyulub. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Dünya azərbaycanlılarının vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək kimi məqsədləri reallaşdırmaq üçün mühüm addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi və azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid və bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması kimi məsələlərin, zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək, bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər və o ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da, məhz bu məqsədi daşıyır".

### AZƏRBAYCAN DİASPORUNUN MƏSKUNLAŞMA COĞRAFİYASININ MİQYASI

Qurultaydan bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Artıq imzalanan bu rəsmi sənəddən bu gün 21 il keçir. Tarixi dövr ərizində görülən işlərin miqyası ildən-ilə artıb. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.

Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını qoruyan bir qüvvəyə çevrilib. Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Azərbaycanlılar Amerika qitəsində, Avropa qitəsində, Asiya qitəsində, Afrika qitəsində və Avstraliya qitəsində yaşayırlar. Problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar.

### "BÜTÜN AZƏRBAYCANLILAR, ONLARIN BÖYÜK ƏKSƏRİYYƏTİ VƏTƏNPƏRVƏRDİRLƏR, VƏTƏNƏ BAĞLIDIRLAR"

2016-cı il 3 iyun tarixində keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayı da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələrdən biri kimi yazıldı. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana - doğma Vətənə gəlmişdilər. Bu birliyin və həmrəyliyin nümayişi idi. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar və birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq", - deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin".

Qurultayda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsi aparıldı. Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. prioritet məsələlər müzakirə olundu. Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin ilk illərində, zəif olmağımızdan istifadə edən erməni diasporunun uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya apardığını və bu kampaniyanın tərkib hissəsinin Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etmək məqsədi daşıdığını bildirmişdi: "Azərbaycanda bu illər ərzində diaspor təşkilatları ilə qurulan iş yeni bir mərhələyə gəlib çatıb. Dünyanın müxtəlif yerlərində tədbirlər keçirilir, dünya ictimaiyyəti Azərbaycan reallıqları ilə daha geniş şəkildə tanış ola bilirlər".

### DÜNYA AZƏRBAYCANLILARININ FƏALİYYƏT DÖVRÜNÜN YENİ MƏRHƏLƏSİ - ZƏFƏR QURULTAYI

Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir. Bu gün artıq Azərbaycan tarixi günlərlə zəngin olan dövrünü yaşayır. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olmaqla yanaşı, dünya azərbaycanlılarının fəaliyyət dövründə yeni mərhələnin başlanğıcı kimi tarixiləşdi. Dünyanın 65 ölkəsindən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı ilə keçirilən Qurultayda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı zamanı verdiyi mesajlar xaricdəki azərbaycanlıların növbəti beş ildə fəaliyyəti üçün yol xəritəsi müəyyənləşdirməklə yanaşı, Azərbaycan diasporu qarşısında yeni vəzifələr də qoymuş oldu. Qələbə qazanmış Azərbaycan xalqının Zəfər Qurultayı 2020-ci il Vətən müharibəsində Azərbaycan xalqının böyük Qələbəsindən sonra keçirilən ilk Qurultay idi. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı "Şuşada keçirilən Qurultayın çox böyük tarixi mənası var", - deyə bildirib ki, bu gün Azərbaycan yeni dövrə qədəm qoyub: "Biz otuz il işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi - mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün - xaricdə yaşayan azərbaycanlılar üçün". Bu gün vəziyyətin tam fərqli olduğunu vurğulayan Cənab Prezident diqqətə çatdırıb ki, bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq: "Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq. Bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

Azərbaycanın diaspor fəaliyyəti qısa müddətdə uzun və əlamətdar yol keçərək müasir dövrümüzdə mütəşəkkil şəkildə formalaşıb. Zəfər Qurultayının Şuşa şəhərində keçirilməsi, heç şübhəsiz ki, dünya ölkələrində yaşayan azərbaycanlıların, diasporumuzun fəaliyyət dövrünün yeni mərhələsidir. Artıq Azərbaycan dünyada sözünü demiş bir dövlətdir və uğurlu inkişaf tarixini yaşayır. Ölkəmizdə həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat dövlətimizin əsas inkişaf göstəriciləridir. Prezident İlham Əliyevin rəhbərlik dövrü müasir-müstəqil Azərbaycanın tarixində sürətli iqtisadi inkişaf, dövlətin təşəkkül tapması, qüdrətinin artması, beynəlxalq nüfuzunun yüksəlməsi uğurlar və böyük qələbələr dövrü kimi xarakterizə olunur.

### DİASPOR TƏŞKİLATLARI ÜZƏRİNDƏ MƏSULİYYƏT

Dünya Azərbaycanlılarının Zəfər Qurultayının qələbə rəmzində keçirilməsi nailiyyətlərimizə, zəfərimizə söykənir. Bu zəfər bütün dünya ölkələrində yaşayan Azərbaycanlıların Zəfəridir. Belə ki, müstəqil Azərbaycan bütün Azərbaycanlıların Vətənidir. 44 günlük Vətən Müharibəsində milli birliyimiz, xalq-iqtidar birliyi bizi qələbəyə apardığı kimi bu amillər yaxın gələcəkdə Azərbaycanın daha da gücünü artıracaqdır. Prezident İlham Əliyev müharibədə məğlub olmuş Ermənistanı ölkəmizin ərazi bütövlüyünü rəsmən tanımağa, sülh müqaviləsinin imzalanmasını yubatmamağa və son şansından istifadə etməyə çağırıb. Bununla yanaşı, dövlət başçısı Ermənistandakı revanşistlərə sərt xəbərdarlığını da edib.

Prezident İlham Əliyevin Qurultayındakı nitqində 44 günlük müharibədən sonra regionda yaranmış yeni vəziyyət və qalib dövlətimizin sülhsevər siyasəti ilə bağlı fikirləri bir mesaj oldu. Dövlət başçısı Qurultayda nitqində bir çox məsələlərə toxundu və dünya azərbaycanlıları üçün postmünaqişə dövrünə uyğun yol xəritəsi cızdı.

Müharibədən sonra yaranmış yeni reallıqları, tarixi Zəfərin reallıqlarını, həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqda xaricdə yaşayan azərbaycanlıların, diaspor təşkilatlarının da üzərinə böyük məsuliyyətlər düşür. Əlbəttə ki, Azərbaycan mədəniyyətinin incisi olan Şuşada keçirilən Zəfər Qurultayı soydaşlarımızın yaşadıqları ölkələrdə fəaliyyətlərini daha əzmlə davam etdirmələrinə böyük təkandır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# “Demokratik” Fransa və tarixindəki 165 üsyan

## Son etirazlar Fransaya 1 milyard avrodan çox ziyan vurub

**Fransada 17 yaşlı Əlcəzairli yeniyetmənin polis gülləsi ilə ölümündən sonra başlayan hadisələr 7 gündür davam edir. Hadisələrdə yanğına müdaxilə edən yanğınsöndürənlərin öldüyü açıqlanıb. Fransada baş verən hadisələrin nəticəsində ölkəyə dəyən zərərin dəyərinin 1 milyard avrodan çox olduğu bildirilir.**

Fransa İş Adamları və Sənayeçilər Assosiasiyasının (MEDEF) prezidenti Geoffroy Roux de Bezieux etirazların 1 milyard avrodan çox ziyana vurduğunu bildirib. De Bezieux 200 mağazanın tamamilə talan edildiyini, 300 bank dilerinin tamamilə məhv edildiyini, 250 mağazanın zərər gördüyünü qeyd edib.

Qeyd edək ki, Fransa polisi iyunun 27-də Nanterredə 3 nəfərin olduğu avtomobilə atəş açaraq 17 yaşlı sürücü Naeli öldürüb. Naelin ölümünə etiraz edənlər ölkənin müxtəlif şəhərlərində küçələrə çıxaraq polislə qarşıdurma yaşayırlar. Gənci qətlə yetirən polis məmuru həbs edilib və məhbus kimi mühakimə olunub. Bundan əlavə, Paris, Marsel və Lion kimi bir çox şəhərdə keçirilən etiraz aksiyaları zamanı qarət və talan baş verib, saat 21:00-dan etibarən 10 şəhərdə komendant saatı elan edilib.

Küçə etirazlarının səngiməmidiyi Fransa xaosdan çıxış yolu axtarır, lakin ölkənin tarixi əsrlər boyu davam edən iğtişaşlarla formalaşıb. 1229-cu ildən bəri üsyanların yaşandığı Fransada indiyədək 165 böyük etiraz aksiyası keçirilib.

Fransa 2018-ci ildə ”Sarı jiletlilər” hərəkatından bəri ən böyük üsyanla üz-üzədir. Ölkədə 17 yaşlı yeniyetmənin polis tərəfindən güllələnməsindən sonra başlayan hadisələr günlərdir davam edir. Bütün ölkəyə yayılan etirazlarda bir nəfərin həyatını itirdiyi bildirilsə də, saxlanılanların sayı 2000-i keçib. Parisin bəzi bölgələrində gecə komendant saatı elan edilib, Fransa prezidenti Emmanuel Makron baş verən hadisələrlə əlaqədar Almaniyaya səfərini təxirə salıb.

Fransada baş verənlər dünya mediasında da ”ölkə niyə mütəmadi olaraq üsyan və etirazlarla qarşı-qarşıyadır” sualını gündəmə gətirib. Məşhur britaniyalı tarixçi Con Julius Norviçin 2018-ci ildə nəşr olunan ”Fransa tarixi” kitabı Fransanın üsyan və etirazlarla dolu tarixinin bütün aspektlərindən bəhs edir. Tarixçi, Fransanı ”13-cü əsrdən bəri inqilablar ölkəsi” kimi təsvir edir.

Kitabda yer alan məlumata görə, Paris Universiteti üsyanından sonra Fransa tarixində 165 böyük iğtişaş və etiraz aksiyası olub ki, bunlardan birincisi 1229-cu ildə kilsənin universitet rəhbərliyi üzərindəki nüfuzuna etiraz edilib. Fransa tarixində baş verən etirazların daha çox ”həddindən artıq vergiyə qarşı” olduğunu vurğulayan kitabdakı məlumata görə, ilk vergi üsyanı 1270-ci ildə ölkənin cənubunda yerləşən Cahors şəhərində baş verib. Bir şəhərdən başlayan və bütün ölkəyə yayılan ilk üsyan 1378-1382-ci illər arasında baş verib.

Kitabdakı məlumata görə, Fransa tarixində ən böyük üsyan 1789-cu il Fransa İnqilabı olub və nəticədə Fransa İnqilabı baş verib və bütün dünyada siyasi sistemləri kökündən dəyişdirib. Xalqdan alınan yüksək vergilərə və iqtisadi bərabərsizliyə reaksiya olaraq baş verən və bütün Fransaya yayılan inqilab nəticəsində ”Monarxlar dövrü” sona çatdı. Tarixçi Con Julius Norviç 1789-cu ildə başlayan və 1815-ci ildə sona çatan Fransız İnqilabı zamanı 5 milyondan çox insanın həyatını itirdiyini vurğulayır.

Fransada ilk böyük fəhlə tətili 1936-cı ildə baş verdi. Ölkə boyu 1 milyondan çox fəhlə küçələrə çıxdı və bu tətildən sonra fransız fəhlələr bu gün də qüvvədə olan əsas hüquqlarını bərpa etdilər. Ölkədə ilk azlıq üsyanı 1979-cu ildə baş verib. Polisin Afrika əsilli gənci sorğu-sualsız həbs etməsindən sonra Lion şəhərində çoxlu sayda Şimali Afrika əsilli insan küçələrə çıxıb. 1991-ci ildə bir ərəb yeniyetmə Sartouville şəhərində supermarketdə alış-veriş edərkən asayiş keşikçisi tərəfindən güllələnərək öldürüldükdən sonra ölkədə ilk dəfə bir azlıq vətəndaşı öldürüldükdən sonra şiddətli iğtişaşlar baş verdi. Kitabdakı məlumata görə, fransızlar 1991-1998-ci illər arasında milli azlıq vətəndaşların polis tərəfindən öldürülməsinə etiraz olaraq 7 dəfə küçələrə çıxıblar.

Fransada 20-ci əsrdə ən böyük üsyan 1968-ci ildə baş verdi. Bu tarixdə Parisdə Sorbonna Universitetində tələbə gənclər hərəkatı olaraq başlayan etiraz aksiyalarına milyonlarla fəhlə və fermer qatılıb. Fransanın əksər böyük şəhərlərində 9 milyon insan etiraz aksiyası keçirərək hökuməti danışıqlar masasına oturtmağı bacarıb. 1968-ci il hərəkatı da ABŞ-dan Çinə qədər bütün dünyada oxşar addımların atılmasına səbəb oldu. 1968-ci il hadisələri qədər genişmiqyaslı olmasa da, 1986-cı ildə universitetə qəbul islahatı təklifi, 1995-ci ildə ictimai nəqliyyat işçilərinin maaşlarının artırılması təklifi və aşağı əmək haqqı sistemi zamanı ölkə daxilində yüz minlərlə insan etiraz etdi.

2018-ci ildə ”Sarı jiletlilər hərəkatı” adlanan böyük etiraz aksiyaları da dünya miqyasında təsir bağışladı. 200 minə yaxın insan yanacağın qiymətinin artması, yaşayış xərclərinin yüksək olması, vergi yükünün aşağı və orta təbəqəyə yayılması kimi problemlərə qarşı əvvəlcə Parisdə, sonra isə ölkə daxilində etiraz aksiyası keçirib.




***Lalə Mehralı***

***Təsdiq edilmişdir:***
***“OMNİ” Qapalı Səhmdar Cəmiyyətinin Ümumi Yığıncağının***
***6 iyun 2023-cü il tarixli qərarı ilə***

# “OMNİ” Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci il üzrə İllik Hesabatı

“OMNİ” Qapalı Səhmdar Cəmiyyətinin

- Direktoru
- Baş mühasib vəzifəsini
icra edən şəxs
Roman Alloyarov
Fazil Cabbarov

Bakı 6 iyun 2023-cü il

“OMNİ” Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra “Emitent”) bu hesabatı Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin № 10q, 03 fevral 2016-cı il tarixdə qəbul etdiyi “Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında” Qaydalarına uyğun tərtib edilmişdir.

1. Emitentin tam adı: “OMNİ” Qapalı Səhmdar Cəmiyyəti;
Emitentin qısaldılmış adı: “OMNİ” QSC;
Emitentin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi: 1700160671
Emitentin dövlət qeydiyyatının tarixi və nömrəsi: 05.11.2003, 1700160671.
2. Emitentin hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Böyük Qala küçəsi 37;
Emitentin olduğu yer: Bric Plaza, Bakı şəhəri, Bakıxanov küçəsi 24.
3. Emitentin dövlət qeydiyyatına alınması tarixindən sonra Emitentin adında və təşkilati-hüquqi formasında heç bir dəyişiklik olmamışdır. Emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaranmamışdır. Emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaranmamışdır.
4. Emitentin 2022-ci il ərzində filial və nümayəndəlikləri yaradılmamış və ya ləğv edilməmişdir.
5. Emitentin 2022-ci il ərzində hər hansı törəmə cəmiyyəti yaradılmamış və ya ləğv edilməmişdir.
6. Emitent heç bir şirkətlər qrupuna daxil deyildir.
7. Emitent aşağıdakı fəaliyyət istiqamətləri ilə məşğul olur:
7.1. Hüquq xidmətlərinin göstərilməsi.
8. Emitent lisenziya üzrə hər hansı bir fəaliyyətlə məşğul olmur.
9. Emitent tərəfindən təklif edilən xidmətlər aşağıdakılardan ibarətdir:
9.1. Şirkətlərin təsis edilməsi və dövlət qeydiyyatına alınması;
9.2. Mülki məhkəmə icraatında iddiaçı və ya cavabdehin maraqlarının müdafiəsi;
9.3. Müxtəlif sahələr üzrə müqavilələrin tərtib olunması, bağlanması, icrası, müqaviləyə dəyişikliklər edilməsi və müqaviləyə xitam verilməsi ilə bağlı mübahisələrin tənzimlənməsi;
9.4. Azərbaycan Respublikasının mülki, vergi, əmək, bank, rəqabət, anti-inhisar və digər qanunvericilik sahələrinə dair məsləhətlərin verilməsi.
10. Emitentin işçilərinin sayı 14 (on dörd) nəfər olmuşdur. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.
11. Emitentin idarəetmə orqanları aşağıdakılardan ibarətdir:
11.1. Cəmiyyətin təkbaşçı direktoru: Alloyarov Roman Valentinoviç
12. Emitentin fiziki şəxs olan səhmdarlarının sayı beşdir. Emitentin hüquqi şəxs olan səhmdarı yoxdur.
13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərə (paylara) malik olan şəxslər üzrə məlumatlar aşağıdakı cədvəldə göstərilib:

| Səhmdarın Soyadı, Adı və Atasının adı | Qiymətli Kağızların Növü | Səhmdara Məxsus Olan Qiymətli Kağızların Sayı | Səhmlərin Nizamnamə Kapitalında Faiz Nisbəti |
|---|---|---|---|
| Alloyarov Roman Valentinoviç | adi adlı sənədsiz səhm | 19 (on doqquz) | 19% (on doqquz faiz) |
| Bayramova Aygün Hüseyn qızı | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Məmmədov Riad Eldəniz oğlu | adi adlı sənədsiz səhm | 10 (on) | 10% (on faiz) |
| Zərgərli İsmayıl Fikrət oğlu | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Vəzirova Xatun Rzaquliyevna | adi adlı sənədsiz səhm | 11 (on bir) | 11% (on bir faiz) |

14. Emitentin səhmdarlarının 2022-ci il ərzində keçirilmiş yığıncaqları haqqında məlumat:
14.1. 2022-ci il ərzində Emitentin səhmdarlarının beş ümumi yığıncağı keçirilmişdir:
14.1.1. Emitentin səhmdarlarının birinci ümumi yığıncağı 14 aprel 2022-ci il tarixdə keçirilmişdir. Yığıncaqda dividendlərin ödənilməsi haqqında qərar qəbul edilmidir.
14.1.2. Emitentin səhmdarlarının ikinci ümumi yığıncağı 28 iyun 2022-ci il tarixdə Bakı şəhəri, Bakıxanov küçəsi 24 ünvanında keçirilmişdir. Yığıncaqda Emitentin illik hesabatının, mühasibat balansının və mənfəət və zərər hesablarının təsdiqi haqqında qərar qəbul edilmişdir.
14.1.3. Emitentin səhmdarlarının üçüncü ümumi yığıncağı 25 iyul 2022-ci il tarixdə keçirilmişdir. Yığıncaqda dividendlərin ödənilməsi haqqında qərar qəbul edilmidir.
14.1.4. Emitentin səhmdarlarının dördüncü ümumi yığıncağı 14 noyabr 2022-ci il tarixdə keçirilmişdir. Yığıncaqda dividendlərin ödənilməsi haqqında qərar qəbul edilmidir.
14.1.5. Emitentin səhmdarlarının beşinci ümumi yığıncağı 12 dekabr 2022-ci il tarixdə keçirilmişdir. Yığıncaqda dividendlərin ödənilməsi haqqında qərar qəbul edilmidir.
15. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat:
15.1. Emitentin adi adlı səhmi (bundan sonra “Səhmlər”) dövriyyədədir;
15.2. Səhmlərin dövlət qeydiyyat nömrəsi və dövlət qeydiyyat tarixi:
1010500K, 21 noyabr 2003-cü il;
15.3. Səhmlərin miqdarı və nominal dəyəri: 100 (yüz) ədəd, hər bir səhmin dəyəri 20 (iyirmi) manat;
15.4. Səhmlərin məcmu nominal dəyəri: 2000 (iki min) manat;
15.5. 2022-ci il ərzində Emitent tərəfindən Səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat: 2022-ci ildə 3,028,783 manat dividend ödənilmişdir;
15.6. Yuxarıda qeyd edilən Səhmlər istisna olmaqla, Emitent tərəfindən səhm və ya istiqraz emissiyası həyata keçirilməmişdir;
15.7. Emitentin Səhmlərinin yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer haqqında məlumat: “Bakı Fond Birjası” QSC, Bakı, Xətai rayonu, Babək pr, Ə.Quliyev 11/31, Babək Plaza 9-cu və 10-cu mərtəbələr, AZ 1025.
16. Hesabat dövrü ərzində Emitent tərəfindən xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.
17. Hesabat dövrü ərzində Emitent tərəfindən aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.
18. Ümumi yığıncaq 2022-ci il üzrə illik hesabatı 6 iyun 2023-cü il tarixdə təsdiq etmişdir.
19. 2022-ci il üzrə illik hesabat “Səs” qəzetində dərc ediləcəkdir.

***"OMNI" QSC***
***MÜHASİBAT BALANSI***
***31 dekabr 2022-ci il tarixinə***

**(manatla)**

| Bölümün, maddənin №-si | | 2022 | | 2021 | |
|---|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 434 997,41 | | 227 908,02 | |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | | | |
| 13 | Bioloci aktivlər | | | | |
| 14 | Təbii sərvətlər | | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | 434 997,41 | | **227 908,02** |
| **2** | **Qısamüddətli aktivlər** | | | | |
| 20 | Ehtiyatlar | | | | |
| 21 | Qısamüddətli debitor borcları | 28 766,04 | | 153 259,96 | |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 1 188 795,86 | | 2 182 971,53 | |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | | |
| 24 | Sair qısamüddətli aktivlər | 493 228,77 | | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **1 710 790,67** | | **2 336 231,49** |
| | **CƏMİ AKTİVLƏR** | | **2 145 788,08** | | **2 564 139,51** |
| | | | | | |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| | | | | | |
| **3** | **Kapital** | | | | |
| 30 | Ödənilməmiş nominal (nizamnamə) kapital | 2 000,00 | | 2 000,00 | |
| 31 | Emissiya gəliri | | | | |
| 32 | Geri alınmış kapital(səhmlər) | | | | |
| 33 | Kapital ehtiyatları | | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət(ödənilməmiş zərər) | 1 814 672,79 | | 1 731 883,90 | |
| | **CƏMİ KAPİTAL** | | **1 816 672,79** | | **1 733 883,90** |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | | |
| | | | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **0,00** | | **0,00** |
| | | | | | |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 324 727,25 | | 236 553,71 | |
| 53 | Qısamüddətli kreditor borcları | 4 388,04 | | 69 339,66 | |
| 54 | Sair qısamüddətli öhdəliklər | 0,00 | | 524 362,24 | |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **329 115,29** | | **830 255,61** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **329 115,29** | | **830 255,61** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **2 145 788,08** | | **2 564 139,51** |

0,00 0,00

**Direktor:** **Alloyarov Roman**

# Rusiyalı politoloq:
# “Makronun Qarabağda məqsədi birdir- təxribat!”

## Nadejda Uzunova: Qərbin vəzifəsi Ermənistandan öz problemlərini həll etmək üçün alət kimi istifadə etməyə davam etməkdir

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*





Fransa prezidenti Emmanuel Makron ölkəsində polisin iyunun 27-də 17 yaşlı gənci güllələnməsindən sonra davam edən ən ağır iğtişaşlar fonunda erməni icması ilə görüşü və Qarabağla bağlı bir sıra təxribat xarakterli bəyanatlar verməyi niyə zəruri hesab edib? Parisin Cənubi Qafqazda maraqları nədən ibarətdir? Fransa üzrə politoloq və ekspert Nadejda Uzunova ”Moskva-Baku” portalına müsahibəsində vəziyyəti təhlil edib. Ekspertin müsahibəsini oxucularımza təqdim edirik.

- Fransa Prezidenti Emmanuel Makron Marselə gələn Ermənistanın ictimaiyyətinin, xüsusilə də erməni radikal müxalifət nümayəndələri ilə görüşməyi vacib hesab edib. Görüşdə Fransa lideri Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı bir sıra kifayət qədər konkret bəyanatlar verib. Xüsusilə, o, Ermənistanın baş nazirinə, Azərbaycan prezidentinə ”Qarabağla bağlı (burada isə onun mövqeyi qətidir) və Ermənistan-Azərbaycan prosesinin digər aspektləri ilə bağlı daha çox təzyiqlər etdiyini bəyan edib. Və qeyd edib ki, beynəlxalq aləmdə ”Artsax” məsələsini qaldıran yeganə şəxsdir.

- Məncə, Makron məhz NATO ilə Rusiya arasında qarşıdurmanın kəskinləşməsi fonunda Cənubi Qafqaz trasında aktiv şəkildə özünü göstərməyə başladı. Biz xatırlayırıq ki, Rusiya İkinci Qarabağ Müharibəsindən sonra Moskvanın vasitəçiliyi ilə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi nizamlanmasına başladıqdan sonra Qərb ”tərəfdaşları”, xüsusən də Fransa bu məsələ ilə bağlı Rusiya tərəfinə hədsiz dərəcədə narazılıq ifadə etmişdilər.

Parislə Moskvanın isə, bildiyiniz kimi, müəyyən siyasi rəqabəti var- Afrikada Rusiya son illər öz mövqelərini gücləndirib, Fransanın isə mövqeyi isə arsıdılıb. Ona görə də Fransa Cənubi Qafqaz yolunda bir neçə ssenari həyata keçirir: bir tərəfdən Afrika üçün Rusiya Federasiyasından qisas alır, digər tərəfdən isə bu amil daha ciddidir, Paris NATO-nun maraqlarından çıxış edir, Rusiya ilə Qərb arasında qlobal qarşıdurma fonunda bütövlükdə Qərbi təmsil edir.



Rusiya qədər heç kim Zaqafqaziyada sülhün qorunmasında maraqlı deyil, ona görə də nizamlamada balanslı hərəkət edir. Makron öz ambisiyalarını və Qərbin siyasətini dərk edərək özünü balanssız aparır, çünki bütövlükdə Qərb kimi Parisin məqsədi Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması deyil, sabitliyin pozulması, o cümlədən Rusiya ilə Ermənistan arasında toqquşmadır. Ona görə də Paris (Fransa ilə Ermənistanın yaxınlığının tarixi faktorunun təsiri ilə yanaşı) İrəvanın tərəfində oynayır. Amma bu yaxınlıq faktoru xəyali xarakter daşıyır. Fransa və Qərbin Cənubi Qafqazda qarşıya qoyduğu vəzifələrin həllində vasitəçi ölkə məhz Ermənistandır.

Fransanın Ermənistan-Azərbaycan sərhədində Aİ-nin monitorinq missiyasının işində bu qədər fəal olması, fransızların heç bir başqa ölkədən siyasətçilərin gəlmədiyi şəkildə kifayət qədər müntəzəm olaraq Ermənistana gəlməsi əbəs yerə deyil. Onlar Aİ-nin monitorinq missiyası ilə birlikdə Ermənistan-Azərbaycan sərhədinə gələrək, Bakı ilə İrəvan arasında nizamlanmanı asanlaşdıran bəzi bəyanatlar deyil, əksinə, həm Azərbaycan, həm də Rusiya tərəfindən qıcıq doğuran bəyanatlar səsləndirirlər.

Odur ki, Makronun Marseldə erməni icması ilə görüşü Fransa liderinin onun üçün vacib siyasi tapşırıqların iş qaydasında qərar verməsi kimi şərh edilə bilər. O vaxt iğtişaşlar təzəcə başlayırdı (Fransada iğtişaşlar artıq normaya çevrilmişdi) və Fransa prezidenti ümid edirdi ki, onları tez bir zamanda söndürmək olar.

Bundan əlavə, istənilən halda iyunun 1-də Kişinyovda Azərbaycan prezidenti, Ermənistanın baş naziri, Fransa prezidenti, Almaniya kansleri və Avropa İttifaqı Şurasının rəhbərinin beştərəfli görüşü olub. Makron Parisin Ermənistan-Azərbaycan prosesinə hansısa böyük təsiri olduğunu iddia etməkdə davam etmək istəyir. Baxmayaraq ki, ümumiyyətlə, bu belə deyil. Makronun Marseldə erməni ictimaiyyətinə, ən əsası isə erməni radikal müxalifətinə onun onların tərəfində olması, bütün dünyada Qarabağ separatçıları mövzusunu gündəmə gətirən, demək olar ki, ən önəmli şəxs olması, onun gurultulu bəyanatları da bundan irəli gəldiyi barədə danışıb. O, bu məsələdə Ermənistan hakimiyyətinin özündən də daha fəal lobbiçilik edir.

Həmin Makron danışıqlarda vəziyyəti daha da mürəkkəbləşdirmək üçün Ermənistan-Azərbaycan prosesindəki ən çətin məsələdən istifadə edir. Bu, həm dünyanın ən böyük icmalarından biri olan Fransa daxilindəki erməni icmasına, həm də Ermənistanın müxalifətinə qarşı belə bir oyundur- bu görüşdə son dərəcə vacib və diqqəti cəlb edən detaldır. Yəni, dediyim kimi, Parisin və Qərbin vəzifəsi Ermənistandan öz problemlərini həll etmək üçün alət kimi istifadə etməyə davam etməkdir. Ona görə də Makron açıqlamalarında həm də erməni müxalifətinə işləyir. Məqsəd Ermənistan hakimiyyətini razı salmaq deyil, öz ölkəsində əsasən radikal erməni müxalifətindən ibarət erməni icması ilə oynamaq, Cənubi Qafqazda sabitliyin pozulması ilə öz problemlərini həll etməkdir.

Biz görürük ki, Makron hər dəfə iyunun 1-də Kişinyovda olduğu kimi, danışıqlar prosesinə ”sürünməyi” bacaranda, hər şey rəsmi Bakının bəyan etdiyi bir növ Azərbaycan üçün qəbuledilməz olan təxribat xarakterli bəyanatla bitir.

Makronun öz bəyanatlarında dəfələrlə Rusiya və Azərbaycanın Cənubi Qafqaz trasında birlikdə təmsil olunduğunu vurğulamağa necə cəhd etdiyini xatırlayırıq. Və o qədər acınacaqlı təxribat xarakterli bəyanatlar səsləndirir ki, Azərbaycan prezidenti ötən ilin sonunda dedi ki, Paris artıq Ermənistan-Azərbaycan nizamlanmasında vasitəçi ola bilməz. Makrona sonra Kişinyovda yenidən şans verildi, amma heç nə dəyişmədi. Çünki Fransanın məqsədi birdir- nizamlanma yox, təxribat.

Azərbaycanla Ermənistan arasında əsas vasitəçi kimi danışıqlar aparan Rusiyanı sıxışdırmaq cəhdi, onu regionda sülhün real təminatçısı kimi gözdən salmaq cəhdi var. Onlar Rusiyanı gözdən salmaq istəyirlər, lakin bu, münaqişəni daha da dərinləşdirə bilər. Azərbaycan və Ermənistan belə bir çətinliklə nizamlanmaya doğru irəliləyir. Rusiyanı gizlicə sıxışdırıb sıxışdırıb Zaqafqaziyada yeni münaqişəni alovlandırmağa cəhd edirlər. Bölgədə kombinasiya oynamaq, situasiyalarda, insanların həyatında oynamaq istəyirlər. Rusiya uzunmüddətli nizamlanmada maraqlıdır. Qüvvələr Fransadan istifadə edərək müdaxilə edərsə vəziyyət daha da gərginləşəcək. Onlar müdaxilə edib getdilər və region ölkələri yenidən münaqişə vəziyyətindədir.



Rusiya Ukrayna ətrafındakı vəziyyətlə bağlı nə qədər uğurlu hərəkət etsə, digər strateji istiqamətlərdə də vəziyyət bir o qədər yaxşı inkişaf edəcək.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
5 iyul
2023-cü il

# Çox oxuyan, az bal yığan abituriyentlər

## Ekspert: "Heç bir ölkədə universitetə qəbul prosesi bizdəki qədər qəliz deyil"

DİLEMMA



Təhsil millətin gələcəyidir, amma gələcəyimiz olan uşaqlar təhsil dilemması qarşısında aciz qalıblar. 6 ay sərasər qəbul imtahanına hazırlaşan, imtahana girən abituriyentlərin uzun və gərgin hazırlaşma prosesinə görə psixoloji vəziyyəti qaydasında olmur. İllərlə, aylarla hazırlıq prosesi, repetitor köməyi nəticədə bir işə yaramır, uşaqlar qəbul imtahanlarında az bal toplayır.

Dövlət İmtahan Mərkəzi (DİM) 2022-ci il üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinə dair elmi-statistik materialları "Abituriyent" jurnalının 12-ci nömrəsində çap edib. Jurnalda qeyd olunan məlumata əsasən, 2022-ci ildə respublikanın ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanlarında 73 min 429 abituriyent iştirak edib.

Onların 16.12%-i 0-100, 26.67%-i 100-200, 21.96%-i 200-300, 25.61%-i 300-500, 9.64%-i isə 500-700 bal toplayıb. Abituri-





yentlərdən 2077 nəfər 600 və daha yüksək bal yığıb. Yüksək bal toplayanlar respublikanın demək olar ki, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini təmsil edirlər. Yüksək nəticə göstərənlər I qrupda 1081, II qrupda 142, III qrupda 344, IV qrupda 510 nəfərdir.

Təhsil eksperti, ixtisas seçimi və gələcək karyera üzrə mütəxəssis Ramin Nuraliyev qəzetimizə bildirir ki, dünyanın heç bir yerində abituriyentlər belə stress, həyəcan yaşamır: "Bizdə ali məktəblərə qəbul imtahanlarının həyəcanı mart ayında başlayır və avqust ayı daxil (6 ay) davam edir. Buna bizim övladlarımız dözür. İnanın, bizim uşaqlarımız qədər amerikalılar, avropalılar, yapon və çinlilər oxusaydılar alim olardılar. Bu kimi inkişaf etmiş ölkələrdə universitetə qəbul olmaq asan, oxumaq çətindir. Bizdə isə tam əksinə. Bizim universitetlərə qəbul prosesinin dünyada alternativi yoxdur deyərdim".

Ramin müəllim deyir ki, bir abituriyent 5 ay imtahan stresi yaşayırsa, yayın istisində imtahana girirsə, buna müvafiq universitetə qəbul olursa onu qəhrəman adlandırmaq lazımdır: "Buraxılış imtahanı, blok imtahanı, qabiliyyət imtahanı, dövlət dili Azərbaycan dili imtahanı, ikinci cəhd imtahanı deyə-deyə bu 5 aylıq marafon baş alıb gedir. Mart ayında buraxılış imtahanı ilə başlayan həyəcan avqust ayında ixtisas seçimi ilə yekunlaşır və abituriyentlər sentyabrda universitetə başlayır. Hansı abituriyenti dindirirsən yorgundur və bu yorğunluq universitet dərslərinə də təsir edir".

"Etiraf edək ki, yüksək gərginliklə universitetə qəbul olan abituriyentlərin əksəriyyəti yorğunluqdan universitetdəki dərslərinə biganə qalır. İlk növbədə imtahanların aprel-may aylarında yekunlaşması lazımdır ki, isti aylarda abituriyentlər istirahət edərək universitetin başlanğıcına sağlam və enerjili başlasınlar" - deyə ekspert bildirir.

Universiteti bitirənlərin yarısı ixtisası barədə yaxşı biliyə sahib deyil. Ramin Nuraliyev deyir ki, bunun da səbəbi məhz bu prosesdir: "Bu məsələdə işin başlanğıcı DİM - in üzərinə düşür. Qəbul prosesini uzunmüddətli olmamalıdır. Uşaqları bir neçə qəbul imtahanı ilə yormamaq lazımdır. Qəbul prosesi mütləq asanlaşdırılmalı, universitet sistemi öyrədici olmalıdır. Yorğun, dərsdən, kitabdan, elmdən bezmiş bir gənc universitetə qəbul olduqdan sonra kitaba, oxumağa həvəssiz yanaşırsa, burada oturub düşünmək lazımdır. Dünya dövlətləri öz ali məktəblərini xarici vətəndaşlara açır ki, buyurun gəlin bizdə hətta attestatla təhsil alın. Bizim isə hər il universitetlərdə minlərlə boş yerimiz qalır. Bunun günahkarı kimdir? İnanın, əgər ikinci cəhd imtahanında suallar asanlaşdırılmasa bu il daha çox yer boş qalacaq. Niyə boş qalmalıdır? Dövlətimiz hər il ixtisasların sayını artırır. Hər il dövlət sifarişli yerlərin sayını artırır ki, gənclərimiz ali təhsilli olsun. Amma DİM sualları qəlizləşdirir və müsabiqə qaydalarında xüsusi hallar



tətbiq edir.

DİM rəhbərliyi düşünmür ki, bu ixtisaslara qəbul olmayanların, xüsusilə də, zəif bal toplayanların əksəriyyəti attestatla xarici ölkələrə gedir oxumağa? Olmaz ki, həmin gənclər bu boş qalan yerlərdə oxuyaraq xeyri özümüzə versin? Niyə bizim kapitalımız xaricə axmalıdır? Elə bu boş qalan yerlərin çoxu da ödənişli yerlərdir, bu kapital ölkədə qalıb bizim iqtisadiyyatımıza təkan verərsə yaxşı olmazmı? Ümidvaram ki, DİM də bu dediklərimi çox yaxşı başa düşür və ikinci cəhd imtahanını çətin salmayacaq".

*Lalə Mehralı*

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Bu günə 36 dərəcə isti var!

**Deyəsən qızmar yay getdikcə öz təsirini göstərməkdədir. Bu günə olan hava proqnozu da dediklərimizi təsdiqləyir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin məlumatında deyilir ki, Bakıda və Abşeron yarımadasında havanın əsasən yağmursuz olacağı gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 29-34° isti olacaq.**



Rayonlarımızda hava əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir, ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Mülayim şərq küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 31-36° isti, dağlarda gecə 10-15°, gündüz 17-22° isti olacaq.

## ELAN

**Şamaxı rayon Aqrar İslahat Komissiyasının 07.11.2006-cı il tarixli 09 nömrəli qərarına əsasən rayonun Sabir qəsəbə sakini Alxanov Mehbali Seyfəddin oğlunun adına verilmiş rayonun Sabir qəsəbəsində yerləşən torpaq sahəsinə dair A №-033089 saylı torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.**

**Dövlət Torpaq Kadastr kitabında 08.02.2008-ci il 1371 nömrə ilə uçota alınıb.**

## BAŞSAĞLIĞI

Bakı Dövlət Universiteti Qazax filialının kollektivi filialın direktoru Arif Rüstəmova əzizi

Marsella Eyyubovanın

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**